Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

alman əməkdaşlığı
DEUTSCHE ZUSAMMENARBEIT

Azərbaycan Respublikası Təhsil Nazirliyi
Peşə Təhsili Üzrə Dövlət Agentliyi

TURİZM SAHƏSİNDƏ TARİXİ ABİDƏLƏR VƏ ƏTRAF MÜHİTİN QORUNMASI

Implemented by

giz Deutsche Gesellschaft für Internationale Zusammenarbeit (GIZ) GmbH

Deutsche Gesellschaft für
Internationale Zusammenarbeit (GIZ) GmbH
Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ)

Şirkətin oturum yeri
Bonn və Eşborn (Eschborn)
Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində Dual Peşə Təhsili və Təlimi pilotların yaradılması (EDVET) layihəsi
Qış Parkı Plaza
Rəsul Rza küçəsi 75, 201-ci ofis
Tel. +994 (12) 599 91 20-25
Fax. +994 (12) 599 91 26
Email info@giz.de
https://www.giz.de/en/worldwide/367.html

Çap edilib
Fevral 2019

Müəllif
Babayeva Pərvanə

Məzmun və dizayn
Quliyev Elmir
T. +994 51 829 68 10
guliyevproduction@gmail.com

Bu dərgi Avropa İttifaqının (EU) maliyyə yardımı ilə hazırlanmışdır. Sənədin məzmununa görə Seft Consulting məsuliyyət daşıyır və burada ifadə olunan fikirlər heç bir halda Avropa İttifaqının rəsmi mövqeyi kimi qəbul edilə bilməz.

“Qəbələ, İsmayıllı və Qax rayonlarının kənd təsərrüfatı və turizm sahələrində dual peşə təhsili və təlimi pilotların yaradılması (EDVET) layihəsi“ Avropa İttifaqı (EU) və Almaniya Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) maliyyə dəstəyi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GİZ) “Cənubi Qafqazda özəl sektorun inkişafı və peşə təhsili və təlimi regional proqramı” (PSD TVET) tərəfindən həyata keçirilir.

Açıqlama: Hazırki dərginin məzmununa və orada ifadə olunmuş fikirlərə görə EU, BMZ və GİZ məsuliyyət daşımır.

Qeyd 1: Bu kurikulumun hazırlanmasında müvafiq peşə standartından istifadə edilmişdir.
Qeyd 2: Dərgidə istifadə olunan şəkillər açıq mənbələrdən götürülüb.

MÜNDƏRİCAT

Giriş 5

"Turizm sahəsində tarixi abidələr və ətraf mühitin qorunması" modulunun spesifikasiyası 6

Təlim nəticəsi 1: Ekologiya haqqında ümumi məlumat verir 7

1.1.1. Ekologiyanın inkişaf tarixi barədə məlumatları şərh edir 7

1.2.1. Ekoloji şəraitin yaxşılaşdırılması üsullarını sadalayır 9

1.3.1. Atmosferi çirkləndirən sənaye sahələrini araşdırın 11

1.4.1. Ekoloji sistemlər haqqında məlumatları səlist şəkildə məruzə edir 13

1.4. Tələbələr üçün fəaliyyətlər 15

1.5. Qiymətləndirmə 16

Təlim nəticəsi 2: Ətraf mühitin mühafizəsini bilir təşkil etməyi bacarır 17

2.1.1. Ətraf mühitin mühafizəsi haqqında məlumatları şərh edir 17

2.2.1. Ətraf mühitin çirklənməsi və onun əhalinin sağlamlığını təsiri haqqında ümumi məlumat verir 19

2.3.1. Yeraltı sərvətlrdən faydalı qazıntıların çıxarılması və onun ətraf mühitə təsiri 21

2.4.1. Ətraf mühitin pozulmasının yaradan səbəbləri araşdırın 24

2.5. Tələbələr üçün fəaliyyətlər 25

2.3. Qiymətləndirmə 26

Təlim nəticəsi 3: Tarixi abidələrin mühafizəsini bilir və təşkil etməyi bacarır 27

3.1.1. Tarixi abidələr haqqında ümumi məlumat verir 27

3.2.1. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və qorunması haqqında məlumatları şərh edir 35

4.1.1. Abidələrin qorunması haqqında dövlət qanunlarını əzbərdən danışır 39

4.2.1. Abidə qoruqlarının yaradılması haqqında məlumatları izah edir 43

4.3. Tələbələr üçün fəaliyyətlər 47

4.4. Qiymətləndirmə 48

Ədəbiyyat 49

GİRİŞ

İnsan özü üçün nə lazımsa – hava, su, maddi nemətlər, sənaye üçün xammal və s.-ni təbiətdən alır. Bu sərvətlərdən yüz illərdən bəri kor-təbii istifadə olunması nəticəsində ətraf mühit dünya miqyasında dəyişilməyə məruz qalmışdır.

Müasir dünyada turizmin sürətlə inkişaf etməsi, turizm sənayesinin geniş infrastruktur şəbəkəsi, insanların istirahəti üçün böyük imkanlar yaratmaqla yanaşı, bir sıra problemlər doğurub. Bu problemlərdən biri də ekologiya və ətraf mühitin mühafizəsi məsələsidir. Gözəl təbiət, cəlbedici landşaft, təmiz hava, göl və çaylar, çimərliklər, meşə sahələri - bütün bunlar turizmin inkişafı üçün başlıca təbii sərvətdir.

Modulun adı: Turizm sahəsində tarixi abidələr və ətraf mühitin qorunması
Modulun kodu: 5
Saatlar və kredit: -
Modulun ümumi məqsədi: Bu modulu tamamladıqdan sonra tələbə, Ekologiya haqqında ümumi məlumatı, ətraf mühitin mühafizəsi, tarixi abidələrin mühafizəsi və təşkili barədə bilir.

Təlim nəticəsi 1: Ekologiya haqqında ümumi məlumat verir.
Qiymətləndirmə meyarları
1. Ekologiyanın inkişaf tarixi barədə məlumatları şərh edir.
2. Ekoloji şəraitin yaxşılaşdırılması üsullarını sadalayır.
3. Atmosferi çirkləndirən sənaye sahələrini araşdırın.
4. Ekoloji sistemlər haqqında məlumatları səlist şəkildə məruzə edir.

Təlim nəticəsi 2: Ətraf mühitin mühafizəsini və təşkilini bilir.
Qiymətləndirmə meyarları
1. Ətraf mühitin mühafizəsi haqqında məlumatları şərh edir.
2. Ətraf mühitin çirklənməsi və onun əhalinin sağlamlığını təsiri haqqında ümumi məlumat verir.
3. Yeraltı sərvətlrdən faydalı qazıntıların çıxarılması və onun ətraf mühitə təsirini təsvir edir.
4. Ətraf mühitin pozulmasının yaradan səbəbləri araşdırır.

Təlim nəticəsi 3: Turizmin müxtəlif növlərinə uyğun ekskuyiyaların təşkilini bacarır.
Qiymətləndirmə meyarları
1. Tarixi abidələr haqqında ümumi məlumat verir.
2. Tarix və mədəniyyət abidələrinin mühafizəsi və qorunması haqqında məlumatları şərh edir.
3. Abidələrin qorunması haqqında dövlət qanunlarını əzbərdən danışır.
4. .Abidə qoruqlarının yaradılması haqqında məlumatları izah edir.

1.1.1. EKOLOGIYANIN İNKIŞAF TARİXİ BARƏDƏ MƏLUMATLARI ŞƏRH EDİR

EKOLOGİYA NƏDİR?

Ekologiya yunan sözüdür (oykos – ev, daxma, logiya - elm). Lakin yunan sözü olsa da onu ilk dəfə alman bioloqu 1869-cu ildə Ernest Hekgel işlətmişdir. Ekologiya canlı orqanizmlər arasında və onların olduğu mühitlə qarşılıqlıəlaqə haqqında sintetik bioloji elmdir. Ekologiyanın əsas predmeti daxilində enerji və üzvi maddələrin transformasiya prosesi gedən və bir-birilə qarşılıqlı əlaqədə olan canlı orqanizmlərin məcmusunu öyrənməkdir. Ekologiyanın əsas vəzifəsi ekosistemdə enerjinin qarşılıqlı təsirini öyrənməkdir. Müasir ekologiyanın diqqət mərkəzində ekosistemin konsepsiyasının – ekoloji paradiqmanın konstruksiyasıəsası durur. Ayrı-ayrı fərdlər, populyasiyalar, növlər, qruplaşmalar və onların ətraf mühitlə qarşılıqlı əlaqəsi də ekoloji tədqiqat obyektləri hesab olunur, lakin müstəqil bir elm kimi ekologiya üçün spesifik deyildir, belə ki, onlarla digər bioloji elmlər (botanika, zoologiya, sistematika, genetika, biocoğrafiya və b.) məşğul olur.

Ekologiya elminin inkişafı XX əsrin əvvəlinə təsadüf edir. Çünki təbiətin vəziyyəti bu əsrin 30-cu illərinəqədər ciddi təşviş doğurmurdu. Lakin II Dunya müharibəsindən sonra təbiətə, ətraf muhitə, təbii ehtiyatlara qarşımənfi münasibət ilbə il gücləndiyindən ekologiya elmi tamamilə yeni, inkişafı zəruri sayılan elm sahəsinə çevrildi.Hazırda elmi-texniki tərəqqinin sürətlə inkişafı ilə əlaqədar təbii ehtiyatların mühafizəsi məsələlərinin həlli müasir ekologiyaya olan maraq dairəsini özünün qanuni bioloji sərhədindən çıxarmışdır. Bununla əlaqədar ekologiya elminin xüsusi sahələri meydana gələrək sürətlə inkişaf etməkdədir: bitkilərin ekologiyası, torpağın ekologiyası,coğrafi ekologiya, heyvan ekologiyası, mikro orqanizmlərin ekologiyası, suların, sənayenin, nəqliyyatın, şəhərlərin ekologiyası, ekoloji biologiya,mədəniyyət ekologiyası, sosial ekologiya və onun qolu olan insan ekologiyası,kosmik ekologiya və s.

Ekologiya elminin son tətbiqi nəticələri aşağıdakılardan ibarət olmalıdır:

- müasir və gələcək nəsilləri sağlam ətraf mühitlə təmin etmək üçün elmi əsaslar hazırlamaq;
- təbii ehtiyatların mühafizəsi və tullantısız texnologiyanın ekoloji əsaslarını aşkar etmək;

optimal və etibarlı fəaliyyət göstərən süni (antropogen) ekosistemlər, xüsusilə kənd təsərrüfatı yaratmaq; rəsmi və qeyri-rəsmi səviyyələrdə ekoloji təhsilə və əhalinin bütün təbəqələri

- arasında ekoloji mədəniyyətə yiyələnmək.

Hazırda respublikamızda ekoloji mühitin pozulması, meşələrin, çəmənlərin, kənd təsərrüfatına yararlı torpaqların azalması, bəzi yerlərdə tamamilə sıradan çıxarılması, Kür, Araz və digər çayların, Xəzərin, torpağın, havanın çirklənməsi, bir sıra bitki və heyvan növlərinin bioloji müxtəlifliyinin pozulması və ya azalması ekologiya kitabına ehtiyac olduğunu sübut edir. Kitab ekoloqlar, bioloqlar, coğrafiyaşünaslar, torpaqşünaslar, meşəçilər, geobotaniklər, kənd təsərrüfatı, həm də təbii ehtiyatlardan istifadə problemləri və onların mühafizəsi məsələləri ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur.

Azərbaycanda ekologiya elminin ayrı-ayrı sahələrinin tarixi müxtəlifdir. Aşağıda ekologiya ilə bağlı olan əsas elm sahələrinin tarixi verilir. Coğrafiya sahəsi Məlum olduğu kimi ekologiya elmi coğrafiya elmi ilə sıx bağlıdır. Belə ki, ekologiya canlı orqanizmlər arasında və onların olduğu coğrafi mühitlə qarşılıqlıəlaqə haqqında elmdir. Azərbaycan ərazisində coğrafiyaya aid ilkin məlumatlara qədim yunan coğrafiyaçısı və tarixçisi Strabonun «Coğrafiya» adlıəsərində təsadüf olunur. Strabondan sonrakı dövrlərdə məşhur coğrafiyaçılar və tarixçilər, o cümlədən Əbdür Rəşid Bakuvi (XV əsr), Hacı Zeynalabdin Şirvani (XVIII-XIX əsrlər), Abbasqulu Ağa Bakıxanov (XIX əsr), Həsənbəy Zərdabi (XIX-XX əsrlər) və başqalarının əsərlərində Azərbaycanın coğrafi şəraiti haqqında məlumatlara rast gəlmək olar. 18 XX əsrin əvvəllərində bir sıra əcnəbi və Azərbaycan alimləri (Q.Abix, N.Qubkin, V.Dokuçayev, G.İ.Boqdanoviç, R.P.Reynqard, A.Qrosheym, İ.V.Fiqurovski, Qafır-Rəşad, M.Baharlı və b.) respublikamızın ərazisində coğrafiya elminin müxtəlif istiqamətləri üzrə elmi tədqiqat işləri aparmış, iqlimşünaslıq, atmosfer fizikası, mikroiqlimşünaslıq, zooiqlimşünaslıq sahəsində elmi əsərlər yazmışlar. Buna İ.V.Fiqurovskinin «Azərbaycanın iqlim rayonlaşdırılması» (1926), «Kür-Araz hövzəsinin iqlim oçerki», «Aqrometeorologiya» (1929), Ə.Şıxlinski və S.Kopelioviçin «Azərbaycan SSR iqliminin səciyyəsi» və b. misal ola bilər. Coğrafiyanın müxtəlif sahələri üzrə daha geniş elmi tədqiqatlar 1945-ci ildən sonra Azərbaycan EA-da Coğrafiya İnstitutu yarandıqdan sonra aparıldı. İnstitutun strukturunda dəyişiklik aparılaraq geomorfologiya, paleocoğrafiya, landşaftşünaslıq, iqlimşünaslıq, hidrologiya, xəritəçilik, toponimika, Xəzər dənizi, meşə torpaqşünaslığı, iqtisadi və sosial coğrafiya, təbiəti mühafizəşöbələri təşkil olundu. Azərbaycanda coğrafiya elminin inkişafında Ə.M.Şıxlinski, Q.K.Gül, Ə.Mədətzadə, S.H.Rüstəmov, B.A. Antonov, V.Q.Zavriyev, H.B.Əliyev,

H.Ə.Əliyev, H.Ə.Əliyev, Ş.C.Əliyev, B.Ə. Budaqov, Ə.C.Əyyubov, N.Ş.Şirinov, Ə.M.Hacızadə, B.T. Nəzirova, N.Kərəmov, R.X.Piriyev, M.A.Müseyibov, A.A.Nadirov, Ə.V. Məmmədov, Ş.Y.Göyçaylı, Q.G.Həsənov, R.M. Məmmədov, Ş.B.Xəlilov və b. rolu böyük olmuşdur. Coğrafiya İnstitutunda sinoptik meterologiya şöbəsi yarandıqdan sonra Ə.A.Mədətzadənin rəhbərliyi altında kollektiv hava proseslərinin oroqrafik şəraitləəlaqədar tətqiqi, iqlimi yaradan makroatmosfer proseslərinin növləşdirilməsi, təbii sinoptik iqlim fəsillərinin, güclü küləklər, tufan, dolu, leysan yağışları, şiddətli şaxtalar, quraqlıq kimi hadisələrin əmələgəlmə mexanizminin təkrarlanmasının öyrənilməsi, eyni zamanda Xəzər dənizi üzərində baş verən proseslərin tədqiqi ilə məşğul olmuşdur.

1.2.1. EKOLOJİ ŞƏRAİTİN YAXŞILAŞDIRILMASI ÜSULLARINI SADALAYIR

EKOLOJİ ŞƏRAİT

Atmosfer havasının işlənmiş qazlarla çiklənməsini azaltmaq üçün avtomobillərin vəziyyətinə gündəlik texniki nəzarət keçirilməlidir. Xəttə buraxılan maşınların sazlığını yoxlamaq bütün avtobobil təsərüffatlarının vəzifəsi və borcudur. Texniki xidmətin aşagı səviyyədə olması, nəzarətin olmaması atmosfer havasının zərərli maddələrləçirklənməsini artırır. Hazırda zəhərlilik dərəcəsini azaltmaq məqsədilə avtomobillərin konstruksiyasını təkmilləşdirməklə yanaşı onlara texniki xidmətin səviyyəsini artırmaq və avtomobillərin texniki vəziyyətinnə nəzarəti təkmilləşdirmək günün aktual məsələsi hesab olunur.

Hazırda ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün avtomobil yanacağı kimi etilli benzindən istifadənin qadağan edilməsi böyük əhəmiyyət daşıyır. Kontinentin şimal ölkələrinin çoxunda praktiki olaraq etilli benzindən daha istifadə edilmir. Bununla yanaşı bütün yeni avtomobillər xüsusi katalizatorla təczhiz olunmuş və yalnız etilsiz yanacaqla doldurulur. Belə katalizatorlardaha köhnə nəqliyyat vasitələrində də qoyulur.

Hidrogendən əsas yanacaq kimi istifadə olunması, işlədilməsi gələcək texniki sivilizasiyanı kökündən dəyişə bilər. Bununla da müasir övrün mühüm problemi sayılan ətraf mühitin çirklənmədən mühafizəsi praktiki olaraq həll oluna bilər. Hidrogenin mühərrik yanacağı kimi xarakteristikası olduqca nadir sayılar, belə ki, onun yaxşı alovlanması, işlənmiş qazların zərərli olmaması, yüksək yanma intensivliyi və sürəti («benzin-hava» qarışığından 4 dəfə artıq) vardır.

Dünyada ildə 50 milyon tona qədər hidrogen istehsal olunur. XXI əsrin ilk 25 ilində hidrogenin istehsalı və ondan istifadə bu günə nisbətən bir neçə dəfəçox olması proqnozlaşdırılır.

Atmosfer havasının çirklənmə səviyyəsini azaltmaq üçün şəhər küçələrində nəqliyyat yükünü nizamlayaraq onların bərabər paylanmasını təmin etmək lazımdır. Bu zaman hər şeydən əvvəl şəhərin strukturu – sənaye vəyaşayış rayonlarının yerləşməsi, istirahət yerləri, mədəni-məişət xidməti obyektləri nəzərə alınmalıdır.

Xəzər dənizinin çoxkomponentli çirklənməsi bir çox sənaye obyektləri növlərinin məskunlaşdığı mühitin sanitar-gigiyena vəziyyətinin dəyişməsinə təsir göstərən amil olmuşdur. Qiymətli balıq növlərinin kütləvi qırılması adi hadisəyəçevrilmişdir.

- **Ekoloji turizm- sağlam istirahət və təbiətin mühafizəsi.**

Müasir dünyada turizmin sürətlə inkişaf etməsi, turizm sənayesinin geniş infrastruktur şəbəkəsi, insanların istirahəti üçün böyük imkanlar yaratmaqla yanaşı, bir sıra problemlər doğurub. Bu problemlərdən biri də ekologiya və ətraf mühitin mühafizəsi məsələsidir. Gözəl təbiət, cəlbedici landşaft, təmiz hava, göl və çaylar, çimərliklər, meşə sahələri - bütün bunlar turizmin inkişafı üçün başlıca təbii sərvətdir.

Lakin turizm sənayesi genişləndikcə bu təbii sərvətin istismar olunması, ətraf mühitin çirklənməsi təhlükəsi də artır. Odur ki, turizmin ekologiyaya olan zərərli təsirini tamamilə aradan qaldırmaq müasir turizm sektorunun qarşısında duran mühüm vəzifələrdəndir. Bu baxımdan ekoloji turizmin (ekoturizm) inkişaf və təşviq etdirilməsi mühüm önəm kəsb edir.

Ekoturizm insanların dincəlmək, istirahət etməklə yanaşı, ətraf mühit qarşısında məsuliyyətini dərk etməsini, təbiətin gözəlliklərindən zövq almaqla bərabər, onu qorumaq mədəniyyətini də özündə ehtiva edən turizm növüdür. Təsadüfi deyil ki, son dövrdə turizm sənayesi yüksək inkişaf etmiş bir sıra ölkələrdə insanlar artıq ənənəvi turizmdən imtina edərək ekoloji turizmə daha çox meyil göstərirlər. Özü də turizmin bu növünün inkişafı geniş maliyyə imkanları və gəlirlərlə müşayiət olunur. Məsələn, ABŞ-da ekoturistlərin milli parklara gəzintisindən ölkə büdcəsinə milyardlarla dolla vəsait daxil olunur.

Azərbaycanda ekoturizm üçün böyük potensial mövcuddur. Turizm şirkətləri ölkə ərazisindəki milli

milli parklara ekoturlar təşkil edirlər. Lakin hələlik bu sahənin geniş inkişafından danışmaq mümkün deyil. Bəs turizm müəssisələri ekologiya məsələlərini necə həll edir, onların həllində müəssisə rəhbərliyi nə dərəcədə maraqlıdır?

Son illərdə bu sahədə müəyyən qanunvericilik tədbirləri daxil olmaqla, turizm sektorunda ətraf mühitin mühafizəsi yeni səviyyəyə qalxıb: «Avropa İttifaqı "Ekoloji menecment və təftiş sistemində şirkətlərin könüllü iştirakı haqqında" əsasnamə hazırlayıb. Avropa ölkələrinin ekologiya menecmenti sistemi turizm müəssisələrində ekotəftişlərin aparılması, turizm müəssisələri tərəfindən xammal, su, elektrik və istilik enerjisinə qənaət olunmasına köməklik və s. tədbirləri nəzərdə tutur». Ekoloji menecmentin metodikasına uyğun olaraq, müəssisələr turizm xidmətləri göstərərkən, ərzağın və inventarların alınmasından başlayaraq, gündəlik praktiki məsələlərin həllinə qədər, öz fəaliyyət dairəsinə ekologiya məsələlərini də daxil etməlidirlər: «Turizm müəssisələrinin idarə edilməsinə ekoloji üsulların tətbiq olunması turizm sənayesi üçün yeni bir işdir. Beynəlxalq səviyyədə ekoloji məsələlərin ardıcıl və münasib idarə edilməsinin təməlində ekoloji menecment sistemi durur».

Bu gün Azərbaycanda turizm sənayesi müəssisələri tərəfindən ekoloji idarəetmə üsullarının tətbiqində Avropa ölkələri təcrübəsi və standartları nəzərə alınmalıdır. «Turizm haqqında» Azərbaycan Respublikasının Qanunu və "Turist-ekskursiya xidmətləri" Dövlət standartı ekologiya məsələlərinə praktiki olaraq toxunmur. Azərbaycan Respublikasının "Turist-ekskursiya xidmətləri. Turist xidmətləri. Ümumi tələblər" Dövlət standartında (maddə 4.2.2) qeyd olunur ki, turizm xidmətlərinin təşkili, ətraf mühitin pisləşməsinə (ərazinin çirklənməsi, bitki örtüyünün tapdanması, ağac və kolların zədələnməsi və yandırılması və s.) təsir etməməlidir. 2010-cu ilin Azəbaycanda «Ekologiya ili» elan edildiyini nəzərə aldıqda bu tələbin təxirəsalınmaz həlli arzuolunandır».

1.3.1. ATMOSFERİ ÇİRKLƏNDİRƏN SƏNAYE SAHƏLƏRİNİ ARAŞDIRIN

ATMOSFERİN ÇİRKLƏNDİRİLMƏSİ

Müasir dövrdə atmosferin çirklənməsi bəşəriyyətin, cəmiyyətin «bəlasına», «xəstəliyinə» çevrilmişdir. Bu «bəla» əsasən insanın sənaye fəaliyyətinin aktivləşməsi nəticəsində baş verir və insanın özünə, bütün canlılara, bitkilərə və bütövlüklə biosferə mənfi təsir göstərir. Atmosferin çirklənməsi ən çox sənayenin inkişafı ilə əlaqədar olub fabrik, zavod, nəqliyyat vasitələri, məişət müəssisələri cəmləşən, həyat tərzi yüksək səviyyəyəçatan, yüksək milli gəlirə malik olan, enerjidən yüksək dərəcədə istifadə edən ölkələrdə baş verir. Bu ölkələrdə havaya çoxlu miqdarda karbon qazı, müxtəlif sənaye qazları və tozları artır. Atmosferin çirklənməsi həmçinin qlobal problem olub təbii

və dövlət sərhədlərini tanımır, onlarala məhdudlaşmır və havası intensiv çirklənmiş sıx yerləşən yaşayış məntəqələrindən və sənaye cəhətdən inkişaf etmiş rayonlardan daha uzaqlara - əhalisi az, havası təmiz olan yaşayış məntəqələrinə yayılır.Odur ki, atmosferin çirklənməsi problemi bütün bəşəriyyəti narahat edir, bütün dövlətlər və xalqlar onun təmizliyinin qayğısına qalmalıdır.

Qeyd etdiyimiz kimi havanın tərkibi müxtəlif qazların qarışığından ibarətdir. (azot, oksigen, karbon qazı, arqon, hidrogen, ksenon , rodon və s). Lakin təbiətdə belə tərkibdə təmiz havaya rast gəlmək qeyri mümkündür. Həqiqətdə isə havanın qaz mühitindəçoxlu xırda bərk və maye hissəciklər mövcuddur .Beləliklə, hava areozol və ya dispers sistem halında olur .Bu çirkləndiricilər havaya biosferdən daxil olur.Ona görə ki, hər şeydən əvvəl hava biosferin bir hissəsidir, orada rast gəlinən bərk və maye hissəciklər havanın biosferin digər komponentləri, yəni su, torpaq və canlı orqanizimlərlə qarşılıqlıəlaqəsinin nəticəsidir (təzahürüdür).

Qara metallurgiya, çuqunun əridilməsi və ondan polad istehsalı zamanı atmosferə müxtəlif qazlar atılır. Müasir qara metallurgiya zavodlarının çoxunda kömürün kokslaşdırılması peçləri vardır. Kokskimyəvi istehsalı atmosfer havasını tozla və uçucu birləşmələrin qarışığı iləçirkləndirir. İş rejimi pozulduqda isə atmosferə küllü miqdarda təmizlənməmiş koks qazı atılır. Qara metallurgiya sahəsində sənaye qəzaları zamanı regionda ekoloji vəziyyət daha da kəskinləşir.

Kimya sənayesində turşuların (sulfat turşusu, xlorid turşusu, fosforit turşusu, nitrat turşusu və s .) istehsalızamanı, rezin – texniki işlərində, fosforit, plastik kütlələr, rənglər və yuyucu vasitələr, süni kauçuk, mineral gübrələr, həlledicilərin (toluol, aseton, fenol, benzol) istehsalı zamanı atmosferə tullantılar atılır.

Respublikamızda kimya və neft – kimya müəssisələrinin çoxu Bakı və Sumqayıt şəhərlərində cəmləşmişdir. Mövcud müəssisələrin texniki təchizatı, təmizləyici qurğularının çoxunun yararsız vəziyyətdə olması, qaz-toz tutucu avadanlıqların sıradan çıxması ətraf mühitə normadan artıq tullantıların atılmasına səbəb olur. Belə vəziyyət təbii ehtiyatlardan istifadə edilərkən böyük itkilərə yol verilməsinə səbəb olur.

Havanı daha çox çirkləndirən digər mənbə hazırda nəqliyyat vasitələri, xüsusən avtomobillərdir. Nəqliyyat ətraf mühitə, yəni insanların həyatına güclü təsir göstərir. Şəhərlər böyüdükcə nəqliyyat problemi kəskin halalır. Bəzi şəhərlərdə onların buraxdığı qazlar hava çirkləndirən qazların 68-80%- ni təşkil edir. Əvvəllər bunaəhəmiyyət verilmirdi, çünki avtomobillərin sayı az olduguna görə bu, ətraf mühit üçün o qədər də qorxulu sayılmırdı.Lakin hazırda bu ciddi problemə çevrilmişdir.

1.4.1. EKOLOJİ SİSTEMLƏR HAQQINDA MƏLUMATLARI SƏLİST ŞƏKİLDƏ MƏRUZƏ EDİR

EKOLOJİ SİSTEM

Dünyada, o cümlədən Azərbaycanda ekologiya elminin inkişaf tarixi; həyat mühiti və ekoloji faktorlar; müxtəlif səviyyələrdə (populyasiya, biosenoz, ekosistem, biosfer) təbii sistemlərin funksiyalarının əsas qanunauyğunluqları, onların davamlığı, məhsuldarlığı, enerjisi və digər xassələrini göstərən faktorlar, insan ekologiyası; insan tərəfindən təbii ekosistemlərin fəaliyyət prinsiplərinin pozulması və onun ekoloji nəticələri; ətraf mühitin (atmosfer, hidrosfer, litosfer, o cümlədən torpaq) əsas çirkləndiricilərinin ətraflı xarakteristikası və onların insanın sağlamlığına təsiri; energetika və ekologiya; iqlimin qlobal dəyişməsi və onun təbii və sosial-iqtisadi nəticələri, istilik (parnik) effekti, ozon təbəqəsini dağıdan səbəblər, turş yağışlar, avtomobil nəqliyyatının tullantılarının ətraf mühitə və insanın sağlamlığına təsiri; litosferə, o cümlədən torpağa antropogen təsir: torpaq eroziyası, nitrat və nitritlərin insan sağlamlığına təsiri, səhralaşma; bitki örtüyünə antropogen təsirin nəticələri, təbii otlaqların vəziyyəti, bioloji müxtəliflik və onun deqradasiyası səbəbləri, dərman bitkilərindən istifadə; təbiətin müxtəlif istiqamətlərdə dəyişdirilməsi (əkinçilik, meşədən istifadə, süni su anbarlarının yaradılması, suvarma, bataqlıqların qurudulması, heyvandarlığın intensivləşdirilməsi, tikinti işləri) və insan sağlamlığı; biosferə xüsusi təsir növləri (səs və elektromaqnit çirklənməsi) və onların insan sağlamlığına təsiri; biosferə ekstremal təsirlərin (kütləvi qırğın silahları, müharibələr, nüvə silahları, texnogen ekoloji qəzalar) ətraf mühitdə nəticələri; təbii fəlakətlərin (fırtına. zəlzələ, daşqın, tropik tsiklonlar, sel və sürüşmə hadisələri, quraqlıq, vulkanlar, kosmik fəlakətlər və b.) nəticələri; ətraf mühitin sosial faktorları (siqaret çəkmə, nakromaniya və alkoqolizm) və onların insanın sağlamlığına təsiri. «Ekologiya ətraf mühit və insan» kitabının tərkibində göstərilən mövzular üzrə MDB dövlətlərində və xaricdə nəşr edilmişədəbiyyatlardan, həmçinin müəlliflərin şəxsi tədqiqatlarının materiallarından istifadə olunmuşdur. Hazırda respublikamızda ekoloji mühitin pozulması, meşələrin, otlaqların, kənd təsərrüfatına yararlı torpaqların azalması, bəzi yerlərdə tamamilə sıradan çıxarılması, şəhərlərdə atmosfer havasının, Kür, Araz və digər çayların, Xəzərin, torpağın çirklənməsi, bir sıra bitki və heyvan növlərinin bioloji müxtəlifliyinin pozulması və ya azalması«Ekologiya» kitabına ehtiyac olduğunu sübut edir.

«Ekologiya, ətraf mühit və insan» kitabı ekoloqlar, bioloqlar, coğrafiyaşünaslar, torpaqşünaslar, meşəçilər, geobotaniklər, kənd təsərrüfatı, həmçinin təbii ehtiyatlardan istifadə problemləri və onların mühafizəsi məsələləri ilə məşğul olan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Geniş oxucu kütləsinin «Ekologiya, ətraf mühit və insan» kitabına verəcəkləri məsləhətlər və ya iradlara görə müəlliflər qabaqcadan öz təşəkkürünü bildirir.

- **Turizm marşrutlarında ekoloji təhlükəsizlik**

Turizmin iqtisadi səmərəsi hər kəs üçün aydın olsa da, çoxları bu sahənin inkişafının ekologiya üçün mənfi təsiri haqqında məlumata malik deyil. Bu səbəbdən də əksəriyyət turizmə, sadəcə, bir gəlirli sahə yanaşırlar: «Dünya təcrübəsinə diqqət yetirsək görərik ki, hələ ötən əsrin 70-80-ci illərində tədqiqatçılar turizmin ekologiyaya mənfi təsiri barədə həyəcan təbili çalmağa başlayıblar. Bu problemin həlli təbii resurslardan turizm məqsədli istifadə zamanı müxtəlif təsir vasitələrinə malik olan sistemli yanaşma tələb edir. Dərk etmək lazımdır ki, təbiəti qorumaq, onu həm də turizmin gələcək inkişafı üçün saxlamaq ən vacib problemlərdəndir. Ekoloji tarazlığın pozulması zaman keçdikdən sonra özünü büruzə verir. Turizm məqsədilə ətraf mühitdən nəzarətsiz istifadə onun məhvinə gətirib çıxarır və təbiət gələcək nəsillər üçün itirilir».

Dünya ölkələrinin təcrübəsinə nəzər yetirsək, Böyük Kanyon Milli Parkı (ABŞ) turistlərin həddindən artıq gəlməsi səbəbindən çirklənib və öz cəlbediciliyini itirib. Şərqi Afrikadakı bir çox əyləncə parkları dördtəkərli arabalarda əylənən turistlər tərəfindən toz təpələrinə çevrilib. Sanitar normalara əməl edilməməsi və zibillik Tailanddakı çimərlik kurortlarına ciddi ziyan vurub. Kamçatkadakı çox nadir termal mənbələr nəzarətsiz turist axını səbəbindən temperatur balansının pozulması, bəzilərinin isə fontan vurmasının dayanması ilə üzləşib.

Tez-tez turizm və ekologiyanın qarşılıqlı münasibətində üstünlük iqtisadiyyata verilir. Hesab edilir ki, ətraf mühitin qorunması problemləri iqtisadi problemlərdən sonra həll edilməlidir. Əslində isə bu məsələ əksinə olmalıdır. Bir qayda olaraq turistləri məhz ekoloji təmiz regionlar cəlb edir, çünki burada onlar tam sağlam istirahət və təbiətlə təmasdan estetik təəssürat əldə edə bilirlər. Lakin bu zaman ətraf mühitin mühafizəsinin nəzərə alınmaması nəticə etibarilə regionda istirahət imkanlarının və turizm potensialının məhvinə gətirib çıxarır.

Bütün deyilənlərə əsaslanaraq qeyd etmək lazımdır ki, ölkəmizdə turizmin inkişafında kortəbiiliyə yol vermək çox ciddi ekoloji fəsadlar törədə bilər. Ona görə də hər hansı bir turizm obyekti yaradılarkən, turizm marşrutları işlənib hazırlanarkən ekoloji təhlükəsizlik məsələsi nəzərə alınmalıdır.

1.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- «Ekologiya ətraf mühit və insan» kitabının tərkibində göstərilənlər haqqında müzakirələr aparın.
- Havanı daha çox çirkləndirən mənbələr haqqında slayıt hazırlayın.
- Ekologiyanın əsas predmetini araşdırın və müzakirələr aparın.
- Ekologiya elminin inkişafı haqqında araşdırmalar aparın və nəticə çıxarın.
- Ekoloji mühitin pozulması haqqında esse yazın.
- Valideynlərinizdən atmosferin çirklənməsinin əsas səbəbləri haqqında müsahibə götürün və öyrəndiklərinizi sinifdə müzakirə edin.
- Qara metallurgiya, çuqunun əridilməsi zamanı atmosferin çirkləndirilməsi haqqında diskussiya təşkil edin.
- Havanı daha çox çirkləndirən mənbələr haqqında təqdimat hazırlayın.
- Atmosfer havasının işlənmiş qazlarla çiklənməsini azaltmaq haqqında debat təşkil edin.
- Ekoloji vəziyyəti yaxşılaşdırmağın yolları haqqında evdə valideynlərinizdən məlumat toplayın və sinifdə müzakirə edin.
- İstehsalatda və elektrotexniki qurğularının təmir quraşdırma işlərində yanğının baş verməsi haqqında araşdırma aparın və müzakirə edin.

- Aşağıdakı şəklə münasibət bildirin. Siz burada 3 bilik, 3 bacarıq, 3 yanaşma nümunəsini göstərin.
- Müəssisəyə işə qəbul edilən bütün işçilər, həmçinin təcrübə keçmək və ya müvəqqəti işə qəbul edilmiş bütün şəxslər yanğın təhlükəsizliyi üzrə ilkin təlimatın keçirilməsi haqqında esse yazın.
- Yanğın zamanı insanların təhlükəsizliyinin təmin edilməsi üçün görülən tədbirlər haqqında araşdırmalar aparın və müzakirə edin.
- Köçürmə çıxışlarının sayı, ölçüsü, işıqlandırma şəraiti, tüstülənməmənin təmin olunması haqqında müzakirələr təşkil edin.
- Müəssisə və təşkilatlarda təhlükəli tullantıların kənarlaşdırılması haqqında araşdırmalar aparın.

1.6. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"Ekologiyanın inkişaf tarixi barədə məlumatları şərh edir"

- Ekologiya nədir?
- Ekoloji mühit dedikdə nə başa düşürsünüz?
- Ekoloji mühitin pozulması nəticəsində yaranan zərərlər hansılardır?

" Ekoloji şəraitin yaxşılaşdırılmasıüsullarını sadalayır."

- Hazırda ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün avtomobil yanacağı kimi nədən istifadə qadağan olunub?
- Atmosferi çirkləndirən amilləri sadalayın.
- Atmosfer havasının işlənmiş qazlarla çiklənməsini azaltmaq üçün nə etmək lazımdır?
- Ekoloji vəziyyəti yaxşılaşdırmaq üçün nə etmək lazımdır?

"Atmosferi çirkləndirən sənaye sahələrini araşdırın"

- Atmosferin çirklənməsi dedikdə nə başa düşürsünüz?
- Məişət tullantılarının daşınması hansı orqan tərəfindən həyata keçirilir?
- Atmosferin çirklənməsi ən çox nəyin vasitəsi ilə olub?

"Ekoloji sistemlər haqqında məlumatları səlist şəkildə məruzə edir"

- Ekoloji sistem dedikdə nə başa düşürsünz?
- Ekoloji mühitin pozulmasına səbəb nədir?

2.1.1. ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİ HAQQINDA MƏLUMATLARI ŞƏRH EDİR

ƏTRAF MÜHİTİN MÜHAFİZƏSİNİN ƏSAS PRİNSİPLƏRİ

Ətraf mühitin mühafizəsi aşağıdakı prinsiplərə əsaslanır:

- sosial-iqtisadi, mənəvi-estetik problemlərin qarşılıqlı həlli;
- ərazilərdə ekoloji tarazlığın təmin edilməsi və pozulmuş təbii ekoloji sistemlərin bərpası;
- təbii ehtiyatların səmərəli istifadə olunması və bərpası, təbiətdən istifadənin və ətraf mühitin mühafizəsinin iqtisadi stimullaşdırılmasının tətbiq edilməsi;
- ətraf mühitin bioloji müxtəlifliyinin qorunmasının təmin edilməsi;
- dövlət nəzarəti, bu Qanunun və ətraf mühitin mühafizəsi sahəsində digər normativ hüquqi aktların pozulmasına görə məsuliyyət;
- ətraf mühitə zərər vurulmasının qarşısının alınması və vurulan zərərin qiymətləndirilməsi;

Ətraf mühitin temperaturunun aşağı düşməsi də orqanizm üçün zərərlidir, çünki bu zaman bədən həddən artıq soyuyur, qan dövranı pozulur, qanın immunobioloji xassələri zəifləyir, nəfəs yolları xəstələnir, yel zökəm və digər soyuqdəymə xəstəlikləri yaranır. Deməli, havanın yüksək və alçaq temperaturları insan orqanizminin termotənzimləmə aparatının xeyli gərginləşməsinə səbəb olur. Bu isəəmək məhsuldarlığını azaltmaqla bərabər xəstələnmə və zədələnmə imkanlarını artırır. İş zonasında mikroiqlimin parametrlərininizamlayan sanitariya-gigiyena normaları vardır. Bu normalarla mikroiqlim parametrlərinin optimal və buraxılabilən qiymətləri təyin edilmişdir.

Optimal şəraitlər mikroiqlim parametrlərinin elə bir uyğunluğudur ki, onun insana uzun müddətli təsirində belə termotənzimləmə aparatı gərgin işləmədən orqanizm öz normal funksional və istilik vəziyyətlərini saxlaya bilir.

İş zonasında mikroiqlim parametrlərininburaxıla bilən hədləri onların qiymətlərinin elə uyğunluğudur ki, onun insana müntəzəm və uzunmüddətli təsiri funksional və istilik vəziyyətlərində sonradan keçib gedən dəyişikliklər yarada bilər. Bu dəyişikliklər insanın fizioloji uyğunlaşma imkanlarından kənara çıxmır və normal şəraitdə tezliklə qaydaya düşür. Mikroiqlimin buraxılabilən hədləri sağlamlığı pozmur, lakin

insana qeyri-rahat istilik hissiyatı yaradır, əhvalını pisləşdirir və işgüzarlığını azaldır.

Örtülü istehsalat otaqlarında və iş yerlərində insan orqanizmini həddən artıq qızmadan mühafizə etmək üçün səmərəli ventilyasiyanın təşkili, texnoloji avadanlığın qızmar səthlərinin istilik izolyasiyası, su pərdəsi ilə soyudulması, mühafizə ekranlarının qurulması, istehsal proseslərinin mexanikləşdirilməsi və s. tədbirlər tətbiq edilir.

İstehsalat otaqlarında və maşınların kabinələrində optimal şəraitlərin yaradılmasında ən yüksək nəticə havanın kondensiyasının təşkili ilə əldə edilə bilər.

- **Ətraf mühit və təbiətdən istifadə barədə ümumi məsələlər.**

"Ətraf mühit və təbiətdən istifadə" cəmiyyətlə təbiətin qarşılıqlı münasibəti şəraitində bir-birinə təsir prosesidir. Bu istifadə təbii-resurs potensialının istismarının bütün formalarının və onun qorunması tədbirlərinin cəmini əhatə edir. Ətraf mühitdən istifadə özündə aşağıdakıları birləşdirir: - təbii ehtiyatların hasili və emal edilməsi, onların bərpası və təkrar istehsalı; - təbii həyat mühiti şəraitindən istifadə və onun mühafizəsi; - təbii sistemlərin ekoloji balansının saxlanması, 30 təkrar istehsalı (bərpası) və sərfəli dəyişdirilməsi bu cəmiyyətin inkişafı üçün təbii-ehtiyat potensialının saxlanılmasına xidmət edir. Təbii ehtiyatlar potensialı müxtəlif amillər üzrə - öz mənbələri və yerləşmə məntəqələrinə, tükənmə sürətinə, özünübərpa imkanına, bir ehtiyatın-sərvətin digəri ilə əvəz olunma imkanına və s. görə səciyyələndirilir. İnsanın həyat tərzi və istənilən fəaliyyət növü, əməli olaraq təbii ehtiyatlarından istifadə edilməsi, ətraf mühitin vəziyyətinin dəyişdirilməsi, daha doğrusu, tarazlığının pozulmasına səbəb olur.

Ətraf mühit və təbiətdən istifadənin öyrənilməsi və istifadə edilməsinin nizamlanması müəyyən ixtisaslaşmalar əsasında təbii ehtiyatlardan səmərəli istifadə etməklə ətraf mühiti mühafizə deməkdir. Eyni zamanda təbiətdən istifadə insanların həyat fəaliyyətləri və təsərrüfatdan istifadə prosesində təbii mühitə təsir kimi qəbul edilməlidir. Ətraf mühit və təbiətdən istifadə həm də elmi sahədir, istiqamətdir və özünəməxsus üsullarla, yollarla insanların öz tələbatını ödəmək üçün təbii mühitdən istifadə məsələləri araşdırılır və öyrənilir. Hazırda ətraf mühit və təbiətdən istifadəyə əsasən aşağıdakı kimi baxmaq olar: 1. Cəmiyyətin təbii

ehtiyatlara tələbatını təmin etmək və ətraf mühitin zəruri ekoloji keyfiyyətini qoruyub saxlamaq; 2. Cəmiyyət və təbiət arasındakı qarşılıqlı əlaqə və ya təsir prosesində münasibətlər sistemini qiymətləndirmək. Ətraf mühit və təbiətdən istifadəni birbaşa və ya dolayısı olaraq təbii mühitin dəyişdirilməsində insan 31 fəaliyyətinin xüsusi bir növü kimi hesab etmək də olar. Ətraf mühit və təbiətdən istifadənin aşağıdakı növlərini də ayırırlar: əsas (kənd təsərrüfatı, meşə təsərrüfatı, su təsərrüfatı, hidroenergetik və s.); yardımçı (istehsal prosesində təbii ehtiyatlardan istifadə və s.); əlavə-ətraf mühiti mühafizə. Hüquqi nöqteyi-nəzərdən təbiətdən istifadə iki istiqamətdə həyata keçirilir: ümumi və xüsusi. Ümumi təbiətdən istifadəyə hər hansı bir xüsusi icazə olmadan həyata keçirilə bilər. Bu fəaliyyət vətəndaşlar tərəfindən onlara doğulduğu gündən və yaşadığı müddət ərzində mənsub olduğu təbii hüquqlar əsasında həyata keçirilir. Təbiətdən xüsusi istifadə isə vətəndaşlar və təsərrüfat subyektləri (müəssisələr, firmalar, təşkilatlar) tərəfindən o zaman həyata keçirilə bilər ki, onlara qanunlar, qərarlar, qaydalar və səlahiyyətli dövlət orqanlarının icazəsi verilmiş olsun. Bu istiqamətli təbiətdən istifadə, məqsədyönlü xarakter daşıyır və torpaqdan, Yer təkindən, sudan, meşədən istifadə, heyvanat və bitki aləmindən, habelə atmosfer havasından istifadə etmək istiqamətində həyata keçirilir.

2.2.1. ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİ VƏ ONUN ƏHALİNİN SAĞLAMLIĞINI TƏSİRİ HAQQINDA ÜMUMİ MƏLUMAT VERİR

ƏTRAF MÜHİTİN ÇİRKLƏNMƏSİ

Ətraf mühitin çirklənməsi- Antropogen fəaliyyət prosesində müxtəlif maddələr və birləşmələrin atılması nəticəsində onun xüsusiyyətlərinin zərərli istiqamətdə dəyişməsidir. Təbii mühitin çirklənməsinin əsas mənbəyi istehsal və cəmiyyətin həyat fəaliyyəti prosesində əmələ gələn külli miqdarda tullantıların atılmasıdır. Çirkləndiricı elementlərə bərk, maye və qaz şəkilli maddələr, ziyanlı radiasiya və səs-küy daxildir. Ağır metallar (civə, qurğuşun, kadmium), fosfat, nitrat, kükürd oksidi, bitki və heyvan ziyanverici və xəstəliklərilə mübarizədə istifadə olunan zəhərli kimyəvi maddələr (DDT, aldrin və ş). ionlaşdırıcı radiasiya, radioizotoplar, sənaye və nəqliyyat səs-küyü daha çox ziyanlıdır. Yuxarıda sadalanan maddələrin bəziləri mutagen və kanserogen olub teratogen mutasiya və xərçəng xəstəliklərinin çoxalmasına səbəb ola bilər. Çirklənməyə qarşı ciddi nəzarət qoyulması bəşəriyyət qarşısında böyük problem sayılır.

Litosferin çirklənməsi- sənaye, tikinti və kənd

təsərrüfatı obyektlərinin fəaliyyəti nəticəsində baş verir. Bu zaman əsas çirkləndiricilər - metallar və onların tullantıları, gübrələr, kimyəvi zəhərli və radioaktiv maddələr, məişət tullantılarıdır. ABŞ-da hər bir sakinə il ərzində 730 kq məişət tullantısı düşür. Litosferə ən böyük mənfi təsir göstərən amillərdən biri dağ-mədən sənayesi sahələridir.
Dünyada dağ-mədən sənaye müəssisələrinin fəaliyyəti nəticəsində pozulmuş torpaqların ümumi sahəsi 12-15 mln təşkil edir.

Hidrosferin çirklənməsi - çaylara, göllərə və dənizlərə sənaye, kənd təəsərrüfatı və məişət tullantılarının, çirkab sularının axıdılması nəticəsində baş verir. Butullantılar AvropadaReyn, Dunay, Sena və Temza çaylarının ABŞ da Misisipi və Ohayo çaylarının, Rusiyada Volqa çayının və MDBdə olan bir çox iri çayların (Dnepr, Kür, Amudərya, Sırdərya) həddən artıq çirklənməsinə səbəb olmuşdur. Bu tullantılar çaysuları ilə birlikdə dənizlərə axaraq onları çirkləndirir.

- **Təbii sərvətlərin tükənməsi**

İnsan təbiətin bir hissəsi olub onunla sıx bağlıdır. İnsanın həyatında və fəaliyyətində təbiətin rolunu qiymətləndirmək olduqca çətindir. Təbiət insanların yaşayış mühiti vəzifəsini görür, onun vəziyyəti cəmiyyətin rifah və inkişaf səviyyəsini təyin edir. Hələ XX əsrin başlanğıcında yer kürəsinin əhalisi təmiz hava alır, saf su içirdilər. Dünya sonsuz, təbii sərvətlər isə tükənməz hesab edilirdi. Lakin bir neçə onilliklərdən sonra dünya olduqca təhlükəli ekoloji fəlakət hüdudunda qaldı. Ekoloqların fikrincə əgər bəşəriyyət bu yolu davam etdirərsə, yaxın bir neçə nəsildən sonra onu fəlakət gözləyir. XX əsrin ikinci yarısından başlayaraq əhalinin sürətlə artımı və elmi-texniki inqilab biosferdə deqradasiya proseslərinin əlamətlərini yaratdı. Milyon illər ərzində formalaşan təbii ekosistemlər ciddi dəyişikliyə məruz qalaraq insanın xarici təsirinə qarşı davamsız vəziyyətə düşdü. XX əsrin əvvəlində Yer üzərində əhalinin sayı cəmi bir milyarda yaxın idi, əsrin sonunda isə, yəni bir əsr ərzində bu rəqəm 6 dəfə artaraq 6 milyarda çatdı. Ekoloqların əksəriyyəti belə hesab edirlər ki, təbii resursların tükənməməsi və texnogen fəaliyyət nəticəsində dəyən ziyanın təbii yolla bərpa olunması üçün Yer üzərində əhalinin sayı 1-1,5 mlrd. nəfər hüdudunda olmalıdır. Elmi-texniki inqilab həyatda məlum olmayan və ağıla sığmayan çox böyük gərginliklər yaratdı: aviasiya və avtomobil nəqliyyatı, nüvə energetikası, kimya sənayesi və s. Bu və digər sahələr təbiət üçün zərərli olmaqla yanaşı, həm də təbii resursların azalmasına, bəzən tükənməsinə səbəb oldu. Belə ki, materiallardan və enerjidən istifadə XX əsrdə son dərəcə sürətlə artaraq, hətta əhali artımını da keçdi. Enerjidən istifadə 10 dəfə, materiallardan istifadə isə 9 dəfə çoxaldı. İnsan fəaliyyəti və onun təbiətlə qarşılıqlı əlaqəsi bu gün dünya əhalisinin əksəriyyətinin həyat şəraitinin dəyişməsinə səbəb

oldu.

Antropogen fəaliyyətin nəticələri aşağıdakı kimi təzahür olunur:

• Meşələrin məhv edilməsi, bozqırların (çöllərin) şumlanması, meliorasiya, süni göllərin və dənizlərin yaradılması, meqapolislərin salınması, yol, kanal və trasların tikilməsi nəticəsində yer səthinin landşaftı dəyişir. Təbii ekosistemlərin sahəsi hər il 1 % sürətilə azalır, o cümlədən meşələrin (xüsusilə tropik meşələrin) sahəsi ildə 200 min ha azalır, səhraların sahəsi isə ildə 60 min km2 genişlənir. Hazırda pozulmayan (təbii) ekosistemlərin yalnız 40 %-ə qədəri qalmışdır.

• Atmosferdə parnik (istilik) effekti yaradan toz və qazların toplanması nəticəsində yerin istilik balansı dəyişir, qlobal istiləşmə baş verir.

• Ozon təbəqəsinin ildə 1-2 % nazilməsi, ozon «bacalarının» (deşiklərinin) əmələ gəlməsi müşahidə edilir.

• Torpağın deqradasiyası (şorlaşma, şorakətləşmə, eroziya, münbitliyin aşağı düşməsi) baş verir.

2.3.1. YERALTI SƏRVƏTLƏRDƏN FAYDALI QAZINTILARIN ÇIXARILMASI VƏ ONUN ƏTRAF MÜHİTƏ TƏSİRİ

YERALTI SƏRVƏTLƏR

XX əsrdə faydalı qazıntı yataqlarının işlənməsi litosferdə cəmləşir, lakin əldə olunan faydalı qazıntıların emalı, hazırlanması prosesləri bu və ya digər dərəcədə planetimizin bütün biosfer qabığını əhatə edir. Müasir şəraitdə Yerin təkindən geniş istifadə olunması mühüm geoloji proseslərin gedişini pozmuş, ilk növbədə isə təbii dövranda mübadilənin maddi balansının nisbətinə təsir göstərmişdir. Hazırda çoxlu miqdarda dağ süxuru kütləsinin, həll olmuş və uçucu maddələrin – sənaye axıntıları, tüstü və buxar halında, həmçinin ağır metalların yüksək konsentrasiyası şəklində təbii dövrana daxil olması dağ sənayesi istehsalı ilə əlaqələndirilir. Faydalı qazıntıların işlənmə məhsulları və onların emalı texnogen məhsulların təbii dövrana daxil olmasının əsas mənbəyi sayılır. Belə ki, BMT-nin ekspertlərinin məlumatına görə 1976-ci ildə planetimizin yer təkindən faydalı qazıntıların alınması prosesində 100 milyard ton dağ süxurları kütləsi çıxarılmışdır. XX əsrin ilk illərində dağ mədən işlərinin miqyasının artması ilə əlaqədar dünya təsərrüfatında hər il 120 mlrd. tona qədər

dağ süxurları çıxarılır. İstehsalat fəaliyyətinin litosferin kiçicik hissəsinə təsiri cüzi görünsə də, o, təbii resursların digər növmüxtəlifliyinin keyfiyyətinə və məhsuldarlığına olduqca ciddi təzyiq (təsir) edir. Ətraf mühit üçün zərərli sayılan maddələrin xeyli hissəsinin dağ-mədən müəssisələri tərəfindən atmosferə daxil olması hesab edilir. Dünya təsərrüfatlarında sənaye qurğularından hər il atmosferə 200 mln. tondan artıq toz, 100 mln. tona qədər kükürd anhidridi, 250 min tondan artıq qurğuşun, həmçinin sink, mis, civə və digər toksik elementlər atılır. Yer səthinə müxtəlif fotokimyəvi duman («smoq»), «turşulu yağışlar» şəklində düşən toksiki elementlər biotaya və bütövlüklə biosferə, ilk növbədə insana, onun sağlamlığına böyük ziyan yetirir. Dünya resurs istifadəsində faydalı qazıntıların xüsusi çəkisi Sənaye tullantılarının göstərilən neqativ təsiri bununla bitmir. Texnogen məhsullar və elementlər, məsələn, ağır metallar torpaqda, bitkidə, qida zəncirlərində toplanmaq qabiliyyətinə malikdir, onlardan əksəriyyəti təbii şəraitdə olduqca toksik və təhlükəli olurlar. Son 30-40 il ərzində Dünya okeanında 2000-dən artıq neft quyusu, onlardan 1000-ə qədəri yalnız Şimal dənizində 1964-cü ildən başlayaraq qazılmışdır. Buruqda cüzi qəza olduqda və ya qəza halları olmadıqda belə, hər il 0,1 mln. ton neft itirilir, lakin qəza vəziyyətləri də az olmur. Qurudan neftin böyük kütləsi çaylar və ya məişət axıntıları vasitəsilə dənizə tökülür, bumənbədən neftlə çirklənmənin həcmi ildə 2 mln. tona çatır. Sənaye və neft emalı zavodlarının axıntıları ilə hər il dənizə 0,5 mln. tona qədər neft axıdılır. Dənizə düşən neft onun canlı sakinlərinə (bitki, heyvanat aləmi, mikroorqanizmlər) öldürücü təsir göstərir.

Qərbi Sibirdə neft ehtiyatları mənimsənildikdə daxili su hövzələrinin (çay, göl) neftlə çirklənməsi, xüsusilə həyəcan doğurur. Boş süxurlar, yəni filizin işə yaramayan hissəsi laylar yaradaraq, geniş torpaq sahələrini, o cümlədən kənd təsərrüfatı əkin sahələrini zəbt edir. Atılmış yararsız filiz laylarında külək və su eroziyası prosesləri karxanaların yanındakı meşə (bitki) örtüyünün deqradasiyasına, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının aşağı düşməsinə səbəb olur, dağ-mədən müəssisələri yaxınlığında yaşayan əhali üçün əlverişsiz şərait yaranır. Bütün dünyada dağ-mədən işləri ilə pozulmuş torpaqların ümumi sahəsi 6 mln. hektarı keçir. Dağ-mədən sənaye istehsalının kənd təsərrüfatı və meşələrə bilavasitə neqativ təsirini də bura əlavə etmək olar. Hesablamalara görə, fəaliyyətdə olan karxanadan 35-40 km radiusunda kənd təsərrüfatı bitkilərinin məhsuldarlığı orta səviyyə ilə müqayisədə 30% aşağı düşür. Faydalı qazıntıların çıxarılması ilə əlaqədar yer səthinin

çökməsi müşahidə olunur. İlk dəfə faydalı qazıntılar çıxarılması ilə əlaqədar səthin çökməsi köhnə İngiltərədə müşahidə edilmişdir. Orta Çeşirdə yerin altından duzun çıxarılmasına eramızdan əvvəl başlanmışdır. XVII əsrin sonundan isə 70-110 m dərinlikdən yeraltı üsulla duzun iri istehsalına başlandı. Duz istehsal olunan ərazidə səthin ilk dəfə çökməsi (batması) 1880, sonralar isə 1893 və 1912-ci ildə baş verdi. Bunun nəticəsində diametri 3 km-ə yaxın ərazidə yer deformasiyaya uğradı, oranı su basaraq istifadə üçün yararsız hala düşdü. Burada torpağn üstündəki su boruları parçalandı, kanallar və dəmiryolu kommunikasiyası dağıldı, evlər zədələndi. Uzun illər Parisdə evlər və kilsələrin tikilməsi üçün şəhərin altından əhəng çıxarılmışdır. Əgər XVII əsrin sonunda şəhər küçələrinin altından daş istehsalı dayandırılmasaydı, şübhəsiz, Paris şəhəri «batıb» dağılmışdı. İnsanın aktiv fəaliyyəti (karxanalar, şaxtalar, yeraltı anbarlar, mülki və hidrotexniki obyektlər, zibilxanalar və s.) litosferdə əsasən üst bir neçə 10 metrlikdə aparılır, lakin tək-tək xüsusi dərin karxanalar, şaxtalar və quyular da mövcuddur. Dünyada mis istehsal olunan ən dərin karxana ABŞ-da Yuta ştatında Binqem Kenyondadır. Karxananın dərinliyi 774 m, sahəsi 7,2 km2 , karxanadan çıxarılan qruntun kütləsi 3,4 mlrd. ton təşkil edir Rusiyada Uralda Korkin kəsiyində karxananın dərinliyi 520 metrdir. Ayrı-ayrı şaxtaların dərinliyi 4 km təşkil edir. Buruq quyularının dərinliyi də bir neçə min metrə çatır, dünyada ən dərin quyu (15 km) Kola yarımadasında layihələşdirilmişdir. Daş-kömür, dəmir və digər metalların külçələri, tikinti materialları və digər faydalı qazıntıların karxanaları bütün kontinentlərdə yayılmışdır. Bütün dünyada litosferin üst qatından il ərzində 1000 milyard tondan çox mineral xammal çıxarılır və emal olunur. Ağır sənayenin 90%-ə qədərini təmin edən 400 növə yaxın faydalı 266 qazıntılar çıxarılır. Litosferdən çıxarılan materialların 98%-ə qədəri yararsız olub atılır, yalnız 2%-ə qədəri işlədilir. Beləliklə, litosferin üst qatında materialların həddindən çox antropogen qarışdırılması aparılır. Bu isə həm bütövlükdə ekosferə, həm də onun ayrı-ayrı hissələrinə güclü dərəcədə toxunur.

Faydalı qazıntıların çıxarılması həmçinin Yer qabığının geokimyəvi tərkibini dəyişdirir. Dağ-mədən sənayesinin ətraf mühitə neqativ təsiri çox müxtəlif və böyükdür. Bu, ictimai istehsalın iqtisadi effektliyində, həmçinin digər təbii resurs mənbələrinin keyfiyyətində öz əksini tapır. Son illər ətraf mühitin mühafizəsi sahəsində çalışan bir sıra mütəxəssislər dağ-mədən sənayesinin təsirini kompleks şəkildə qiymətləndirməyə cəhd göstərmişlər. Bu məqsədlə dağ-mədən işləri nəticəsində təbii mühit elementlərinin pozulması və onun səbəblərini əks etdirən keyfiyyət təsnifatları tərtib

edilmişdir.

2.4.1. ƏTRAF MÜHİTİN POZULMASININ YARADAN SƏBƏBLƏRİ ARAŞDIRIN

ƏTRAF MÜHİTİN POZULMASININ YARADAN SƏBƏBLƏR

Layların tökülməsi, karxanaların tikilməsi, durulducu hovuzların, müxtəlif torpaq təpələrinin, xəndəklərin qurulması. Yataqların işlənməsi nəticəsində səthin deformasiyası. Zənginləşdirici fabrik və digər istehsal tullantılarının saxlanması. Montay işləri, ağır avadanlıqların təzyiqi və s.

Yer səthinin relyefinin, daş massivinin geoloji strukturunun, torpaqaltı qruntun və torpağın dəyişməsi. Torpağın mexaniki zədələnməsi. Torpağın dağıdılması və bioloji steril (mikrobsuz) ərazinin yaranması. Tikinti obyektlərinin və mühəndis qurğularının zədələnməsi

Yeraltı və açıq dağ-mədən işlərinin ətraf süxur massivlərinə drenaj təsiri. Yeraltı suların drenajı ilə əlaqədar səthin deformasiyası. Yararsız filiz laylarının tökülməsi, karxanaların, durulducu prudların (hovuzların) tikilməsi. Su hövzələrinin, suaşıranların və digər hidrotexniki obyektlərin qurulması. Suyun çirklənməsi. Müxtəlif məqsədlər üçün yeraltı suyun çəkilməsi.

Yeraltı suların səviyyəsinin, həmçinin hidroqrafik şəbəkənin dəyişməsi, yeraltı suyun hərəkəti. Dayazda yerləşən horizontlarda suyun keyfiyyətinin, torpağın su rejiminin pisləşməsi. Yeraltı suların ehtiyatının azalması. Suffozinin və qruntun mexaniki sıxlaşması (səthin çökməsi). Çayların morfodinamik rejiminin dəyişməsi. Subasarın əmələ gəlməsi

Kimyəvi-Qaz və tozun kimyəvi aktivliyinin emissiyası. Çirkli suların tullantıları. Laylarda və sonuncu anbarlarda olan toksiki komponentlərin təsiri.

Atmosfer havasının, suyun (turşulaşma, duzlaşma, çirklənmə), torpağın (turşuluq dərəcəsinin artması, alkalizasiya, şoranlaşma, fitotoksiki elementlərin artması, çirklənmənin digər tipləri)

Fiziki-mexaniki-Toz və aerozolların emissiyası. Suspenziya və hidrozollarla çirklənmiş suların atılması .

Atmosfer havasının və suyun tərkib və xassələrinin dəyişməsi. Su axarın yatağının kolmatajı. Torpağın xassələrinin dəyişməsi

Termik-Havanın çirklənməsi. İsti suların atılması. İstiləşdirilmiş suların süxura təzyiqlə basılması Atmosfer havasının tərkibi və xassəsinin, həmçinin biokimyəvi proseslərin dəiyşməsi. Mikroiqlimin dəyişməsi.

2.5. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Ətraf mühitin ekoloji tarazlığının qorunması haqqında təqdimat hazırlayın.
- Ətraf mühiti qorumaq üçün hansı qaydalara riayət etməliyik?- bu sual ətrafında debat təşkil edin.
- Ətraf mühitin pozulmasını yaradan səbəbləri araşdırın. (şəkildə ətraf mühitin pozulması).
- Yeraltı sərvətlərdən faydalı qazıntıların çıxarılması və onun ətraf mühitə təsirini araşdırın.
- Litosferin çirklənməsi haqqında məlumatları müzakirə edin.
- Ətraf mühitin temperaturunun aşağı
- düşməsinin orqanizmə təsirini müzakirə edin.
- Ətraf mühitin mühafizəsi haqqında təqdimat hazırlayın.

- Tullantıların zərərsizləşdirilməsi haqqında müzakirələr aparın.
- Çirkləndirici maddələri sadalayın. Aşağıda qeydlərinizi edin.

Bərk	**Maye və Qaz**
• _____	•_____
•_____	•_____
•_____	•_____
•_____	•_____
•_____	•_____

2.6. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:
"Ətraf mühitin mühafizəsi haqqında məlumatları şərh edir."

- Ətraf mühiti necə qorumaq olar?
- Bizim hansı əməllərimiz ətraf mühitə müsbət təsir edir?

Ətraf mühitin çirklənməsi və onun əhalinin sağlamlığını təsiri haqqında ümumi məlumat verir.

- Termik nədir?
- Hidrosferin çirklənməsinə nələr daxildir?
- Ətraf mühiti çirklənmədən necə mühafizə etmək olar?
- **Yeraltı sərvətlərdən faydalı qazıntıların çıxarılması və onun ətraf mühitə təsiri**
- Yeraltı sərvətlərdən faydalı qazıntıların çıxarılması və onun ətraf mühitə təsiri necə ola bilər
- Litosferin çirklənməsi necə baş verir?
- Dağ süxurları neçənci ildə çıxarılmışdır?
- Çirkləndiric maddələr hansılardır?
- Parisdə evlər və kilsələrin tikilməsi üçün şəhərin altından nələr çıxarılmışdır?
- **Ətraf mühitin pozulması qaydaları.**
- Ətraf mühitin pozulmasını yaradan səbəbləri araşdırın?

3.1.1. TARİXİ ABİDƏLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT VERİR

TARİXİ ABİDƏLƏR

Bakının Bayıl qəsəbəsi yaxınlığına yerləşən və hazırda dəniz sularının altındaqalmış tarixi memarlıq abidəsi. Şirvan-Abşeron memarlıq məktəbinin ən gözəl əsərlərindən biri olan və XIII əsrdə inşa edilmiş Bayıl qalası Xəzər dənizinin suyunun qalxıb-enməsi ilə zamanla gah dənizin üzünə çıxır, gah da sulara qərq olaraq görünməz olur. Qala mənbələrdə müxtəlif adlarla ("Sualtı şəhər" , "Bayıl daşları", "Səbayıl qalası", "Karvansara", "Xanəgah", "Kömrükxana" və s.) anılsa da, elmi ədəbiyyatda daha çox "Bayıl qəsri" adı ilə tanınır.

Bayıl qəsrinin adanın biçiminə uyğun uzunsov planı var. Qalanın uzunluğu 180 m, orta eni isə 35 m-dir. Qala divarları şərqdə altı, qərbdə isə beş yarımdairəvi (Bakı qalasındakı kimi) bürclə möhkəmləndirilmişdir.

Bayıl qəsrinin tikintisi siyasi-hərbi baxımdan çox qarşıq bir çağda – monqol yürüşləri bütün Yaxın Şərqi lərzəyə gətirdiyi vaxtda (1234-1235 - ci illərdə) başa çatmışdı. Ancaq sahilə yaxın adada tikilən bu möhtəşəm qəsrin ömrü çox qısa olmuşdur. Alimlərin fikrincə, o, 1306 – cı ildə baş vrən güclü zəlzələ nəticəsində dənizə batmışdır.

- **Qız qalası**

Bakının, eləcə də Abşeronun ən möhtəşəm və sirli memarlıq abidəsidir. Qala qədim qala divarlarının (İçərişəhərin) cənub-şərq hissəsində, dənizkənarı parkın (bulvar) yaxınlığında yerləşən tarixi abidədir. Uca qüllə şəkilli bu nadir abidənin açılmamış tarixi-memarlıq problemləri çoxdur.

Hündürlüyü 28 m, diametri birinci mərtəbədə 16,5 m-dir. Birinci mərtəbədə divarın qalınlığı 5 m-ə çatır. Qalanın daxili hissəsi 8 mərtəbəyə bölünür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz

formalı tavanla örtülmüşdür. Qala 1964-cü ildən muzey kimi fəaliyyət göstərməyə başlamış, 2000-ci ildə UNESCO-nun Ümumdünya irsi siyahısına salınmışdır.
Azərbaycanın emblemlərindən biri olan Qız qalası Azərbaycan pul əskinaslarının üstündə də dəfələrlə təsvir edilmişdir.

- **Şirvanşahlar sarayı**

XV əsrdə Şirvanşah İbrahim Xəlilullahın dövründə tikilmiş saray kompleksi. Bakının mərkəzində, İçərişəhərdə yerləşən saray kompleksi Yaxın Şərqin ən görkəmli memarlıq abidələrindən biridir. Kompleksə Şirvanşahlar sarayı, Divanxana, Keyqubad məscidi, Şirvanşahlar türbəsi (1435-1436), Şah məscidi (1441), Seyid Yəhya Bakuvi türbəsi, Murad darvazası (1585), Saray hamamı və Ovdan daxildir. 1964-cü ildən muzey-qoruq kimi fəaliyyət göstərir və dövlət tərəfindən mühafizə olunur. 2000-ci ildə YUNESKO tərəfindən İçəri şəhər və Qız qalası ilə birlikdə Ümumdünya mədəni irsi siyahısına daxil edilmişdir.

- **Atəşgah**

Od məbədi olan "Atəşgah" Bakının 30 kilometrliyində, Abşeron yarımadasının Suraxanı qəsəbəsinin cənub-şərq hissəsində yerləşir. "Atəşgah" XVII-XVIII əsrlərdə təbii qazın çıxdığı əbədi sönməz alovların yerində inşa edilmiş od məbədidir. Məbədin ən erkən tikilişi olan tövlə eramızın 1713-cü ilinə aiddir, mərkəzi məbəd-səcdəgahı isə 1810-cu ildə tacir Kançanaqaranın vəsaiti ilə tikilmişdir. Suraxanı "Atəşgah"ı məbədin özündən, hind guşənişinlərinin hücrələrindən və zəvvarlar üçün otaqlardan ibarət idi. Atəşgahı bu abidəni sifariş vermiş hindlilərin planı üzrə yerli ustalar tikmişlər.

- **Ramana qalası**

XII-XIV əsrlərə aid edilən, ağ daşdan tikilmiş bu müdafiə qalasının hündürlüyü 15 metrdir. Şirvanşahlar dönəmində qəsr kimi də istifadə olunub.

Bakının Ramana kəndində XVI əsrə aid qaladır. Qala həyətin ortasında yerləşən dördbucaqlı mərkəzi qüllənin hüdürlüyü 15 metrdir. Qüllə dördmərtəbəlidir. 2 - ci və 3 - cü mərtəbələrin döşəməsi taxtadan olmuşdur. Mərtəbələr divariçi dolama pilləkən vasitəsilə birləşir. Divarlarda mazqallar var. Qüllə və bayır divarları maşikullarla tamamlanır. Ağ daşdan tikilən qalanın dəqiq tikilmə vaxtı bəlli deyil. İnşaat texnikasına və plan xüsusiyyətlərinə görə qalanın 14 - cü əsrin ortalarında tikilməsi ehtimal olunur. Güman ki, müdafiə məqsədi ilə tikilib və Şirvanşahlar dövləti dövründə qəsr kimi istifadə olunub. Tarixçilər Ramana qalasından Qız qalasına vaxtilə yeraltı yolun olduğunu qeyd ediblər.

- **Mərdəkan qalası**

Bakının Mərdəkan qəsəbəsində qədim tarixə malik qaladır. Qala dörd künc formada XIV əsrin ortalarında Şirvanşah Mənuçöhrün oğlu Şirvanşah Axsitan tərəfindən tikilmişdir. Mərdəkan qalası Axsitanın düşmən üzərindəki parlaq qələbəsi şərəfinə ucaldılmışdır. Qaladan feodalların sığınacağı və gözətçi məntəqəsi kimi istifadə edilmişdir.

Qalanın hündürlüyü 22 metr, qalınlığı aşağıdan 2,10 metr, yuxarıdan isə 1,60 metrdir. Daxili həyəti-28x25-dir. İçəridən qala 5 yarusa bölünür.

- **Dairəvi Mərdəkan qalası**

Dairəvi Mərdəkan qalası — Mərdəkanda yerləşən dairəvi qala. Yerlilər bu qalanı Şıx qalası adlandırırlar. Qalanın hündürlüyü 16 metrdir, içərisi 3 yarusdan ibarətdir. Qəsrin daşlarında həkk olunan yazıların oxunması zamanı, onun 1232-ci ildə inşa edilməsi məlum olmuşdur. Dairəvi Mərdəkan qəsrinin hündürlüyü 16 m-dir. Qəsri əhatə edən qala hər tərəfdən yeddi metr hündürlüyündə daş divarlarla hörülmüş kvadrat formalı (25x25 m) həyətdən ibarətdir. Hasarın

tinlərində qüllələr, məhəccər və mazqallar vardır. Planda dairəvi olan qəsr, yuxarı getdikcə daralır.

Hündürlüyü boyu qəsr üç hissəyə bölünmüşdür. Bu hissələrin hamısı sferk günbəzlə örtülərək, bir-birilə divarın içində qurulan pilləkənlə əlaqələnir. İki və üçüncü mərtəbələri işıqlandırmaq üçün bayırdan içəriyə doğru kəskin surətdə genişlənən ensiz zolaq şəklində pəncərələri vardır. Qəsr əhəng məhlulu ilə yerli əhəngdaşından hörülmüşdür.

- **Şıx qalası**

Mərdəkanda 16 metr hündürlüyündə inşa edilmiş qala sırf keşikçi məntəqəsi missiyasını daşıyıb. Qalaya mərdəkanlılar İşıq qalası deyirlər. Tarixi mənbələrdə isə göstərilir ki, qalanın yerləşdiyi ərazi Səid Əbdüxxeyir şeyxə məxsus pay torpağıdır. Ona görə tikilinin adı əvvəlcə Şeyx, Şıx qalası, zaman keçdikcə yerli əhalinin dilində təhrif olunaraq İşıq qala kimi formalaşıb. Tarixi 1232-ci ilə aid edilən qalanın daş kitabəsində onun Məsud oğlu Əbdülməcid tərəfindən inşa edildiyi göstərilib.

- **Qobustan**

Qaradağ rayonunun Qobustan qəsəbəsində, paytaxt Bakidan 56 km. aralıda yerləşir. Sahəsi təxminən 3-4 km-dir.

Azərbaycanın ən qədim və zəngin tarixi abidələrindən biri də dünyada qayaüstü təsvirlərlə tanınmış Qobustandır. Qobustanda Böyükdaş, Kiçikdaş, Cingirdağ, Sonqardağ və Şıxqaya dağlarında daş dövrünün və Azərbaycan xalqının ulu keçmişinin şahidləri olan çoxlu qayaüstü təsvir, düşərgə, yaşayış məskəni, qəbir abidələri və s. vardır. Böyükdaş ərazisində mezolitdən orta əsrlərə qədər bütün dövrlərin abidələrinə rast gəlmək olar.

Qobustan - Azərbaycan ərazisində arxeoloji abidələr kompleksinin mühafizə edildiyi qoruqdur. Qoruq paytaxt Bakıdan 56 km aralıda yerləşir.

Burada eləcə də muzey fəaliyyət göstərir. Qoruqda əsasən Mezolit (orta daş dövrü) abidələri sərgilənir. Açıq səma altında yerləşən qoruqda qədim insanların çəkdikləri qayaüstü rəsmlər,

onların həyat və məişəti ilə bağlı digər maddi mənbələr qorunur.
Qobustan qoruğunda mühafizə edilən insan və heyvan təsvirləri ov, döyüş və rəqs səhnələri ən qədim insanların hansı heyvanları necə və hansı üsullarla ovladığını öyrənməyə imkan verir. Yallı səhnələri Qobustan qoruğunun ən maraqlı rəsmlərindəndir.
Qədim rəsmlərdən başqa Qobustanda, Böyükdaş dağının ətəyində latınca yazılmış sözlər aşkar edilmişdir. Bu yazı bizim eradan əvvəl I əsrə aiddir və Bakının yaxınlığında Roma qoşunlarının olmasından bəhs edir.

Qobustanın ilk tədqiqatçısı arxeoloq İshaq Cəfərzadə 1939-cu ildə bu unikal yerlər barədə ilk dəfə dünya elminə məlumat vermişdir. İshaq Cəfərzadə Qobustanda 5000-ə yaxın qayaüstu rəsm aşkar etmişdi.

1972–ci ildə Qobustanda aparılan arxeoloji qazıntılar nəticəsində on iki insan skeleti aşkar olunmuşdur. Firuz düşərgəsində açılmış son mezolit dövrü qəbrindəki insanların kəllə sümüklərinin antropoloji quruluşu, onların elmi tədqiqi zamanı müəyyən olunmuşdur ki, onlar müasir azərbaycanlıların əcdadlarıdır.

Qobustan adının mənşəyi və anlamı barədə müxtəlif tədqiqatçılar fərqli fikirlər söyləmişlər. Lakin onlardan ən çox işlədilən fikir toponimin coğrafi şəraitlə bağlı yaranmasıdır. Həmin fikrə görə Qobustan qobular və yarğanlar diyarı sayılır.

- **Qaranohur gölü**

Qaranohur gölü İsmayıllı rayonunda yerləşən dağ gölüdür. Göl İsmayıllı şəhərindən şimal-şərq istiqamətdə 8 km məsafədə yerləşir. Qaranohur dəniz səviyyəsindən 1520 metr hündürlükdədir.
1966-cı ildə Lahıc kəndinə asfalt yol çəkilənədək gölün ətrafındakı ərazi İsmayıllı şəhərindən kəndə gedən yolda dayanacaq məntəqəsi rolunu oynayır. Öz təbii gözəlliyi ilə seçilən göl böyük turizm potensialına malikdir və getdikcə daha çox turisti özünə cəlb etməklə yaxın gələcəkdə rayonun əsas turistik yerlərindən birinə çevriləcəkdir. Hazırda gölü görmək üçün turistik piyada gəzintilər təşkil edilir və bu gəzinti Talıstan kəndindən başlamaqla gözəl mənzərəli yerlərdən keçərək piyada 2-3 saat davam edir.

Gölün minerallığı çox yüksəkdir və 1000 mq/l-dən çoxdur. Suyu kənd təsərüffatı məqsədləri

üçün yararlı deyildir.

Gölün özəlliklərindən biri də odur ki, sahildən uzaqlaşdıqca suyun şəffaflığı artır və bu, gölün ortasında maksimum həddə çatır. Yayda suyun orta temperaturu 15 dərəcədir.

- **«Avey» Dövlət tarix-mədəniyyət qoruğu**

Avey dağı Azərbaycanın Qazax rayonu ərazisində, rayon mərkəzindən 10 km şimal-qərbdə Daşsalahlı kəndinin hüduduna daxildir. Mağaralar şəkilli qədim yaşayış düşərgəsidir. Sahəsi 360 m^2-dir. Avey dağı iri tektonik zonanın qovuşduğu yerdədir. Bunlar Somxet Qarabağ və Kür ovalığıdır. Paleolit mağaraları olan Avey dağı onlardan əsasən birinciyə aid edilir. Kiçik Qafqazın şimal-şərq ətəkləri çox müxtəlif və qiymətli faydalı qazıntı materialları ilə zəngindir. Ona görə də bu sahənin geoloji quruluşu, geoloji inkişafı dərindən öyrənilmişdir. Lakin geomorfoloji yaşının ayrı-ayrı mərhələlərinə bir o qədər də fikir verilməmişdir, bu da xüsusilə dördüncü dövr, yəni insanın meydana gəldiyi antronogen dövrünə aiddir. Oradan Orta Paleolit, Üst Paleolit, Mezolit və Neolit dövrünə aid 8000- dən çox əşya tapılmışdır.

Dağın 992,5 metr hündürlüyündə qədim alban kilsəsi görünür. Qafqaz Albaniyasının əsas məbədi olan həmin Aveydağ məbədi IV-V əsrlərə aid edilir. S trabonun məlumatına görə, albanlar daha çox Aya sitayiş etmişdir və İberiya sərhədində onların məbədi olmuşdur. Adətən xristian məbədləri əvvəlki (bütpərəstlik) məbədlərinin yerində yaradılırdı. Aveydağ sözünün özü də təxmin etməyə imkan verir ki, albanların Ay məbədi burada imiş. Bunu əsas tutaraq "Aveydağ" sözünü " Ay məbədi", "Ay evi" kimi, bəzi müəlliflər "av" yəni "ov", "av ey/av öyü, iyi ov" kimi izah edirlər. Amma Vikipedik məlumatlara görə məbədin həyətində qəbirlər aşkar edilmişdir. Qəbirlərin sinə daşları albanlara xas olan üslubda naxışlanmışdır. Daşların birinin üstündə emblem kimi albanlara məxsus lotos gülü və onun yuxarı künclərində günəş simvolu olaraq içərisi 8 hissəyə ayrılmış rozetka qazılmışdır."

Arxeoloji qazıntılar zamanı qarışıq təbəqədən nukleuslar, itiuclu, qaşov, bıçaqvari alətlər, lövhəşəkilli bıçaqlar, ox ucluqları, biz və s. tapılmışdır. Daş məmulatı 8000-dən çox olub 550-dən çoxu alət, qalanı isə qəlpədir. Mağaradan ocaq külləri, kömür qırıntıları, müxtəlif heyvan sümükləri

aşkar edilib. Tapıntılar içərisində tünd qırmızı təbii boyalara da təsadüf edilir. Daş məmulatının hazırlanma texnikası, forması və müqayisəsinə görə Orta Paleolit dövrü, Üst Paleolit dövrü, Mezolit dövrü və Neolit dövrünə aiddir. Tapıntı nümunələri tədqiqat üçün Yaponiyanın xüsusi bir laboratoriyasına göndərilmişdi. Mağaranın girişində, 2 metr diametri olan böyük bir ocaq aşkar edilmişdir.

Dağın cənub ətəklərində, şərqində və şimalında bir sıra karst mağaraları vardır. Bundan əlavə, çoxlu talvar qayalar, hündür qaya zolaqları və s. zəngindir.

Avey dağının şimal-qərb hissəsində Daş Salahlı kəndində yerləşən qədim mağara diqqəti cəlb edir. Ahəng qayaların altında mağaradan süzülən Damcılı bulağı axır. Buraya insanlar dincəlmək üçün gəlirlər. Mağaranın ərazisi 360 kv metr təşkil edir. Arxeoloji qazıntılar zamanı burada müxtəlif dövrlərə aid 8000-dən artıq əşya tapılmışdır. Bunlardan ən qədimi orta və üst paleolit dövrlərinə, ən yenisi isə tunc dövrünə və orta əsrlərə aid edilir.

Təbii çatlardan süzülən su damcılarına görə damcılı adlandırılmışdır.

- **Xudafərin körpüləri**

Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, hazırda ermənilər tərəfindən işğal edilən Cəbrayıl rayonu ərazisində yerləşir. Xudafərin Azərbaycan memarlıq sənəti tarixinin bəzəyi sayılan möhtəşəm tarixi abidələrindəndir. Araz çayı üzərində salınan iki Xudafərin körpüsü məlumdur. Onlardan birincisi "Baş Xudafərin körpüsü" adlanır, uzunluğu 130, eni 6, hündürlüyü isə 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla uzunluğu 200, eni 4,5 metr, hündürlüyü 10 metrdir. Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal edilir. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi və Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. H. Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi

Pompey tərəfindən tikilməsi barədə də fərziyyələr irəli sürənlər var.

Bu körpünün Hindistandan başlayaraq Yaxın və Orta Şərq ölkələri, Rusiya və Qərbi Avropa ölkələri arasında Azərbaycanın iqtisadi və mədəni əlaqələrinin inkişafında böyük əhəmiyyəti olub.

- **Cavanşir qalası**

İsmayıllı rayonu ərazisində yerləşir. Qafqaz Albaniyasında Mehranilər sülaləsinin hakimiyyəti dövründə hökmdar Cavanşir tərəfindən tikdirilən qala onun adını daşıyır. Qalanın inzibati mərkəz kimi istifadə olunduğu güman edilir. Qala İsmayıllı rayonunun Talıstan kəndindən 4 km şimalda, Ağcaçayın sağ sahilində yerləşir. Əsas hissə və "içqala"dan ibarətdir.

Əsas hissənin cənub divarlarının qalınlığı 2 m, hündürlüyü isə 10 m-dən çoxdur. Düzgün olmayan çoxbucaqlıyla "içqala" dağın ən hündür yerində tikilmişdir. Qalanın şimal qurtaracağında eni 2 m, uzunluğu isə 50 m olan divar çıxıntı var. Divar silindirvari bürclə tamamlanır. Müdafiə istehkamıdır. Qaladan təqribən 7 km məsafədə yerləşən "Qız qalası"na (İsmayıllı rayonu Xanəgah kəndində) yeraltı yolun olması güman edilir. Qalanın həyətində heç yanda tapılmayan nadir güllər və bəzək ağacları bitir. Qalanın qərb divarları sürüşmə nəticəsində uçub dağılmışdır. Sahəsi təqribən 2 ha-dır. Qalada diametri 8 m-ə çatan 6 bürc var. Qalaya getmək üçün Talıstan kəndinə qədər avtomobillə, kənddən qalaya qədər olan 4 km məsafəni isə piyada və ya atla qət etmək lazımdır.

Tariximizin acılı-şirinli səhifələrini, dağdan ağır yükünü, qələbəsini, sevincini, xalqımızın qəhrəmanlıq əzmini özündə əks etdirən hər bir daşımız, hər bir qarış torpağımız özü-özlüyündə tarixdir. 14 əsrlik tarixi sirləri qoruyub saxlayan Cavanşir qalasını və bu kimi digər abidələrimizi fərqləndirən əsas cəhət isə onun əcdadlarımızdan bizə gəlib çatan maddi və mənəvi bir sərvət olması, həmçinin də Cavanşir məkanı olmasıdır.

Adam o qalanın hər daşına toxunduqca təsəvvür edir ki bir vaxtlar bu daşlara Əfsanəvi Cavanşirin əli dəyib, bura əcdadlarımızın məskəni olub. Yaşı çox qədim olan bu abidəni gördükcə nağıllar aləminə düşürsən. Hər bir xalqın qədimliyi, ululuğu onun abidələrində yaşayır. Abidələr xalqı, xalq isə abidələri yaşadır. Ona görə də tariximizin əks-sədası olan abidələrimizi öyrənmək və qorumaq hər kəsin vətəndaşlıq amalına çevrilməlidir.

3.2.1 TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ QORUNMASI HAQQINDA MƏLUMATLARI ŞƏRH EDİR

TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİ

Bu gün YUNESKO-nun abidələrin və diqqətəlayiq yerlərin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının 1983-cü ildə qəbul edilmiş qərarı əsasında qeyd olunur. Məqsəd dünya ictimaiyyətinin diqqətini maddi-mədəniyyət abidələrinin qorunmasına yönəltməkdir.

Tarixi abidələr - məqbərələr, saraylar, məbədlər, məscidlər, qəbiristanlıqlar, körpülər, ovdanlar, günbəzlər, minarələr və s. tarixi keçmişimizin maddi yadigarlarıdır. Onlar zamanın sərt sınaqlarına sinə gərərək bu günümüzə gəlib çatmışlar. Hər bir ölkənin tarixinin qədimliyi onun maddi-mədəniyyət yadigarlarının çoxluğu və qədimliyi ilə ölçülür.

Bu sahədə ölkəmizin bəxti gətirmişdir. Qobustan, Gəmiqaya, İstisu qayaüstü təsvirləri, Çıraqqala, Oğlanqala, Cavanşir, Gülüstan, Əlincə, Buğurd, Gələrsən-Görərsən kimi qalalarımız, Möminə xatın, Yusif ibn Küseyr, Olcaytu Xudabəndə məqbərələrimiz, Göy məscid, Şah Abbas məscidi, Gövhərağa məscidi, Cümə məscidi, Təzəpir məscidi kimi dini ibadətgahlarımız, Həşt behişt, Şirvanşahlar, İrəvan sərdar sarayı, Şəki xan sarayı kimi nadir memarlıq abidələrimiz bu qəbildəndirlər.

Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz - Azıx və Tağlar mağaraları dünyanın ən qədim insan yaşayan məskənlərindəndir. YUNESKO-nun siyahısına düşmüş bu mağaralardan tapılmış maddi mədəniyyət nümunələri hələ 1981-ci ildə Parisin İnsan muzeyində "Avropanın ilk sakinləri" adlı sərgidə nümayiş etdirilmişdi.

Bir çox ölkələrdə tarixi abidələrin qorunması işi çox ciddi təşkil olunmuşdur. Məsələn, Fransada hətta arxeoloji qazıntılar aparıldıqdan sonra tarixi yerlərin təbii landşaftı olduğu kimi bərpa olunur. Böyük Britaniyanın şimalında da Roma imperatoru Adrianın dövründə imperiyanın sərhədlərini qorumaq məqsədilə çəkilmiş məşhur Adrian sədləri olduğu kimi qorunub saxlanır.

Sovet hakimiyyəti illərində Azərbaycanda tarixi memarlıq abidələrinə dövlət səviyyəsində laqeyd münasibət olmuşdur. Bir çox nadir memarlıq abidələri baxımsızlıq və tamah üzündən sökülüb-dağıdılmış, xeyli memarlıq abidələri, maddi-mədəniyyət nümunələri isə erməni saxtakarlığına məruz qalaraq özgəninkiləşdirilmişdir. Hazırda erməni işğalı altında olan ərazilərimizdəki memarlıq abidələri üzərində də bu cür saxta "əməliyyatlar" aparılmaqdadır. Erməni vandalları Şuşa şəhərini

işğal edərkən Üzeyir bəyin, Natəvanın, Bülbülün tunc heykəllərini belə avtomat atəşinə tutmaqdan çəkinməmişlər.

Azərbaycan müstəqillik əldə etdikdən sonra bu məsələyə münasibət kökündən dəyişmişdir. Beynəlxalq İnkişaf Assosiasiyası ilə Azərbaycan hökuməti arasında imzalanmış "Mədəni irsin qorunmasına yardım haqqında" sazişə uyğun olaraq, Bakıda Şirvanşahlar saray-kompleksində, Naxçıvanda Möminə Xatın və Qarabağlar türbələrində, Şəki xanlarının sarayında bərpa və yenidənqurma işləri aparılmışdır. 2002-ci ildə Respublikamız Abidələrin Bərpası və Tədqiqi Beynəlxalq mərkəzinə üzv qəbul olunmuşdur. Azərbaycan tarixində ilk dəfə olaraq Şirvanşahlar saray-kompleksi və Qız qalası da daxil olmaqla İçərişəhər Dövlət Tarixi-memarlıq kompleksi YUNESKO-nun "Dünya mədəniyyəti irsi" siyahısına daxil edilmişdir.

Tarixi arayış. Birinci Qarabağ müharibəsi nəticəsində Ermənistanın işğalı altında qalan torpaqlarımızda 500-dək tarixi-memarlıq, 100-dən çox arxeoloji abidələr, on minlərlə eksponat olan 22 muzey, 4 rəsm qalereyası, 46 milyon kitab və əlyazmalar saxlanılan 927 kitabxana, 808 klub, 10 istirahət və mədəniyyət parkı, 85 musiqi və incəsənət məktəbi, 20 mədəniyyət sarayı, 4 dövlət teatrı qalmışdır. İşğal altında olan ərazilərimizdə xalqımızın keçmişi və bu gününü əks etdirən 1852 mədəniyyət və incəsənət abidəsi erməni vandalizminin təcavüzünə məruz qalmışdır. Nəticədə tariximiz üçün mühüm əhəmiyyət kəsb edən, milli özünəməxsusluğu özündə əks etdirən minlərlə tarixi və arxeoloji abidələrimiz məhv edilmişdir.

Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalı zamanı rayonda mövcud olan əksər tarixi, mədəni və dini abidələr dağıdılmışdır. Rayonun ərazisində aşağıda adları çəkilən abidələr rayon ərazisində olan abidələrin yalnız 70%-ə qədərini təşkil edir.

TƏLİM NƏTİCƏSİ 3

1. Abdallar (Bəylik) kənd ərazisində: Həkəri çayı üzərində körpü XVIII əsr, daş qutu-dəmir dövrü, qəbiristanlıq.
2. Zabux kəndi ərazisində: Sümüklü qəbiristanlığı, XVI əsrə aid Xallanlı qəbiristanlığı.
3. Malıbəy kəndi ərazisində: qədim qəbiristanlıq.
4. Kosalar kəndi ərazisində IX əsrə aid Ağoğlan qəsri, qədim qəbiristanlıq.
5. Sultanlar (Hüsülü) kəndi ərazisində: 1761-ci ilə aid Soltan Əhməd sarayı, XIV əsrə aid qədim qəbiristanlıq.
6. Zeyvə kəndi ərazisində Soltanbaba türbəsi, Şeyx Əhməd türbəsi, Türbə, qədim qəbiristanlıq.
7. Qarıqışlaq kəndi ərazisində XI əsrə aid məscid, Dəmirovlu Pir-Məbəd.
8. Sadınlar kəndinin mərkəzində XVII əsrə aid məbəd.
9. Hacılar kəndi ərazisində: qədim qəbiristanlıq, bulaq (abidə).
10. Vağazin kəndi ərazisində məbəd.
11. Quşçu kəndi ərazisində XV əsrə aid Uşaq qalası, böyük Bulaq, Korca bulaq, Sadınlar qalacığı.
12. Mirik kəndi ərazisində XV əsə aid qala, məbəd.
13. Bozlu kəndi ərazisində qəbiristanlıq, Xaçın yalı ərazisində XV əsrə aid Xaçın daşı.
14. Əhmədli kəndi ərazisində XVII əsrə aid məbəd "Vəng" qəbiristanlığı.
15. Minkənd kəndi ərazisində XV əsrə aid Minkənd çayı üzərində ikitağlı, Abaxeyir ərazisində bir tağlı körpü. Məbəd.
16. Şeylanlı kəndi ərazisində Birtağlı körpü.
17. Qaragöl ərazisində məscid, qəbiristanlıq.
18. Hoçaz kəndi ərazisində mağara, məbəd.
19. Soyuqbulaq kəndi ərazisində Bulaq (abidə), Məbəd.
20. Zabux kəndi ərazisində körpü (1988-ci ildə dağıdılıb).
21. Güləbird kəndi ərazisində XV əsrə aid Qız qəbri abidəsi, dəmir dövrünə aid Kurqan, Qız qəbri (kurqan), orta əsrə aid Qədim qəbiristanlıq, Bayatı ustadı Sarı Aşığın qəbri.
22. Cicimli kəndi ərazisində XVI əsrə aid Məlik Əjdər türbəsi, XVI-XVII əsrlərə aid türbə, orta əsrlərə aid Çoban daşı və qədim qəbiristanlıq.
23. Malxələf kəndi ərazisində XVII əsrə aid Xəlifə türbəsi, qədim qəbiristanlıq. Sınıq körpü.
24. Aşağı Fərəcan kəndi ərazisində X əsrə aid məbəd, Fərəcan Güləbird yolunda körpü, qədim qəbiristanlıq.
25. Sus kəndi ərazisində XVII əsrə aid bulaq.
26. Seyidlər kəndi ərazisində XVII əsrə aid bulaq, qədim qəbiristanlıq, Pircançay üzərində qədim körpü.

27. Pircahan kəndi ərazisində XVII əsrə aid bulaq, XI əsrə aid Qovur qalası.
28. Korcabulaq kəndi ərazisində məbəd.
29. Ziyrik kəndi ərazisində dəmir dövrünə aid Rizvan meşəsində kurqan.
30. Ərikli kəndi ərazisində XVI əsrə aid Qaraşaqqal türbəsi, araxışda türbə və qədim qəbiristanlıq.
31. Piçənis kəndi ərazisində məbəd.
32. Şəlvə kəndi ərazisində məbəd.
33. Qorçu kəndi ərazisində məbəd.
34. Laçın şəhərində (1941-1945-ci illər) Böyük Vətən müharibəsində həlak olanların xatirə kompleksi.

1924-cü ildən sonra rayonda inşa olunmuş körpülər, bulaqlar, abidələr və abidə kompleksləri və s.

4.1.1 . ABIDƏLƏRIN QORUNMASI HAQQINDA DÖVLƏT QANUNLARINI ƏZBƏRDƏN DANIŞIR.

ABIDƏLƏRIN QORUNMASI HAQQINDA DÖVLƏT QANUNLARI

Abidələrin qorunması haqqında bir neçə dövlət qanunları var və bunlar aşağıdakılardır.

Maddə 1. Abidələrin qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Abidələrin qorunması haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər qanunvericilik aktlarından və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

Maddə 2. Abidələr üzərində mülkiyyət Abidələr dövlət və bələdiyyə mülkiyyətində, eləcə də xüsusi mülkiyyətdə ola bilər. Dövlət mülkiyyətində olan abidələrin özəlləşdirilməsinə (yerli əhəmiyyətli memarlıq abidəsi kimi qeydə alınan yaşayış binaları, onların ayrı-ayrı hissələri və bu maddənin üçüncü hissəsində nəzərdə tutulmuş özəlləşdirilməsinə yol verilən digər yerli əhəmiyyətli memarlıq abidələri istisna olmaqla) yol verilmir. Mühəndis kommunikasiyaları, müdafiə obyektləri, şəhərsalma, dini və xatirə abidələri, hidrotexniki qurğular istisna olmaqla, yerli əhəmiyyətli memarlıq abidələri qanunvericiliyə uyğun olaraq özəlləşdirilə bilər. Özəlləşdirilmiş yerli əhəmiyyətli memarlıq abidələrinin görkəmini və daxili quruluşunu pozmaq, onların mədəni, tarixi dəyərinə xələl gətirə biləcək hər hansı hərəkət etmək qadağandır. Dövlət qeydiyyatından keçmiş və xüsusi mülkiyyətdə olan abidələr satıldıqda dövlət onları almaqda üstün hüquqa malikdir. Hər hansı bir ərazidə yeni abidə aşkar olunarsa, həmin ərazi tarixi-mədəni əhəmiyyətli zona elan olunur və onun yerləşdiyi torpaq sahəsi üzərindəki tikililərlə birlikdə qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət tərəfindən satın alına bilər. Xüsusi mülkiyyətdə olan abidələr dövlət tərəfindən qeydə alınır və onlar satılarkən mülkiyyətçi müvafiq icra hakimiyyəti orqanına bu haqda məlumat verməlidir. Müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan xüsusi mülkiyyətdə olan abidələr xaricə aparıla bilməz.

Maddə 3.Abidələrin qorunması, bərpası, əhəmiyyət dərəcələrinin təyin edilməsi və onlardan istifadə olunmasında Azərbaycan Milli Elmlər Akademiyasının iştirakı Azərbaycan Milli Elmlər Akademiyası abidələrin aşkar olunması, tədqiqi işini, aşkar olunmuş arxeoloji qazıntılar zamanı aşkar olunmuş daşınar maddi-mədəniyyət qalıqlarında müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında mühafizəsini təşkil edir, yeni tikinti zonalarında operativ tədqiqat işləri

aparır, abidələrin əhəmiyyət dərəcələri üzrə qeydə alınmasında iştirak edir, zəruri hallarda maddi-mədəniyyət konservasiya və bərpa işləri görür, abidələrin təbliğini təşkil edir, onların qorunması, tədqiqi, bərpa və konservasiyası üçün metodik vəsaitlər hazırlayır, elmi-praktiki məsləhətlər verir, abidələrin tədqiqi üçün beynəlxalq protokollar və sazişlər imzalayır və Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir. Abidələrin üzərində aparılacaq işlərin layihəsi Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilir. II fəsil. Abidələrin dövlət qeydiyyatı və əhəmiyyət dərəcələri

Maddə 4. Abidələrin dövlət qeydiyyatı Abidələrin siyahıya və dövlət qeydiyyatına alınmasını, pasportlaşdırılmasını, abidələrin siyahısının təsdiqini və daşınmaz abidələrin xəritələrinin hazırlanmasını müvafiq icra hakimiyyəti orqanı həyata keçirir.

Maddə 5. Abidələrin əhəmiyyət dərəcələri Abidələr dünya, ölkə və yerli əhəmiyyətli abidələrə bölünür. Abidələrin əhəmiyyət dərəcələrinə görə bölgüsünü Azərbaycan Milli Elmlər Akademiyasının rəyi əsasında müvafiq icra hakimiyyəti orqanı beynəlxalq normalara uyğun aparır, tərtib və təsdiq edir. Təsdiqlənmiş siyahıya daxil edilmiş abidənin həmin siyahıdan çıxarılmasına yol verilmir. Dünya əhəmiyyətli abidələrin siyahısı müvafiq beynəlxalq təşkilatlara təqdim edilir.

Maddə 6. Azərbaycan Respublikasının ərazisindən kənarda yerləşən Azərbaycana aid abidələrin qeydiyyatı Azərbaycan Respublikasından kənarda yerləşən Azərbaycana aid abidələrin müvafiq icra hakimiyyəti orqanı xüsusi siyahı tərtib etməklə dövlət qeydiyyatına alır, onların

qorunması, bərpası ilə bağlı problemlərin həllində abidələrin yerləşdiyi ölkələrin müvafiq orqanları ilə əməkdaşlıq edir. III fəsil. Abidələrin qorunmasının dövlət təminatı

Maddə 7. Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyasının maliyyələşdirilməsi Abidələrin qorunması, öyrənilməsi, bərpası və konservasiyası dövlət büdcəsindən və yerli büdcələrdən ayrılan vəsaitlər, fiziki və hüquqi şəxslərin maliyyə yardımları və ianələri hesabına maliyyələşdirilir.

Maddə 8. Abidələrin toxunulmazlığı Abidələrin bədii-estetik görkəminin dəyişdirilməsi, uçurulması və onlar üçün təhlükə yarada biləcək təmir, inşaat, təsərrüfat və digər işlərin aparılması qadağandır.

Maddə 9. Mülkiyyətində və ya istifadəsində abidələr olan fiziki və hüquqi şəxslərin vəzifələri və məsuliyyəti Mülkiyyətində və ya istifadəsində abidələr olan fiziki və ya hüquqi şəxslər abidələrin qorunması, tədqiqi və onlardan istifadə edilməsi qaydalarına ciddi əməl etməlidirlər. Mülkiyyətində və ya istifadəsində abidələr olan fiziki və hüquqi şəxslər müvafiq icra hakimiyyəti orqanı ilə həmin abidələrin qorunmasına dair mühafizə müqaviləsi bağlamalıdırlar və həmin abidələrin salamatlığına görə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq

ermənilləşdirilmiş görünüşü

işğaldan əvvəl *işğaldan sonra*

Çuxur məhəllə bulağı

məsuliyyət daşıyırlar.

M**addə 10. Qoruq sərhədi daxilində və mühafizə zonalarında dövlət əhəmiyyətli inşaat və mühəndis kommunikasiya işləri görülərkən abidələrin qorunması** Qoruq sərhədi daxilində və

mühafizə zonalarında abidələr üçün təhlükə yarada biləcək hər hansı işlər müvafiq icra hakimiyyəti orqanının qərarı ilə qabaqlayıcı tədbirlər görülməklə həyata keçirilə bilər. Həyata keçirilən təhlükəsizlik tədbirləri inşaat işlərini aparan subyektin vəsaiti hesabına maliyyələşdirilir. Abidələrə yaxın olan və ya onların mühafizə zonasından keçən yol sahələrində nəqliyyat vasitələrinin hərəkəti abidələrin qorunması üçün təhlükə yaradarsa, müvafiq icra hakimiyyəti orqanı onların hərəkətini məhdudlaşdıra və ya qadağan edə bilər.

Maddə 11. İnşaat və digər təsərrüfat işləri görülərkən aşkar edilən abidələrin qorunması İnşaat və digər təsərrüfat işləri görülərkən abidə aşkar edilərsə, dərhal işlər dayandırılmalı, bu barədə müvafiq icra hakimiyyəti orqanlarına və Azərbaycan Milli Elmlər Akademiyasına məlumat verilməlidir. Bu halda inşaat və digər təsərrüfat işləri Azərbaycan Milli Elmlər Akademiyasının və mütəxəssislərin rəyi əsasında müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə davam etdirilə bilər. İnşaat və digər təsərrüfat işləri tarixi və arxeoloji əhəmiyyət kəsb edən zonada aparılırsa, həmin ərazi əvvəlcədən mütəxəssislər tərəfindən nəzərdən keçirilir və abidələrin ilkin tədqiqi təmin edilir. Müvafiq icra hakimiyyəti orqanı həmin işlər aparılan yerdə öz nümayəndəsinin və mütəxəssisin iştirakını təmin edir.

Maddə 12. Yeni inşaat sahələrində arxeoloji tədqiqatlar Magistral mühəndis kommunikasiyalarının (neft, qaz kəmərlərinin və s.) çəkilişi və di digər inşaat işləri zamanı, hektardan çox ərazini əhatə edən sahələrdə inşaat işləri aparılarkən texniki-iqtisadi əsaslandırma mərhələsində bu işləri həyata keçirən təşkilat tərəfindən görüləcək işlər barədə müvafiq icra hakimiyyəti orqanına və Azərbaycan Milli Elmlər Akademiyasına müraciət edilməli və abidələrin ilkin axtarış işlərinin aparılması üçün vəsait ayrılmalıdır. Həmin zonada arxeoloji abidə aşkar olunarsa, müvafiq icra hakimiyyəti orqanının icazəsi olmadan və lazımi elmi tədbirlər görülmədən inşaat və təsərrüfat işlərinin aparılmasına yol verilmir.

Maddə 13.Dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələrin müqəddəratı Dəfinələrdə aşkar edilmiş və ya tapılmış abidələr dövlətə təhvil verilməlidir. Dövlətə təhvil verilmiş abidələrə görə dəfinəni aşkar etmiş və əşyanı tapmış şəxsə Azərbaycan Respublikasının mülki qanunvericiliyində

nəzərdə tutulmuş qaydada mükafat verilir. Təsadüfən aşkar edilmiş abidələrin mülkiyyətçisi və ya istifadəçisi abidə haqqında müvafiq icra hakimiyyəti orqanına məlumat verməlidir. Təsadüfən aşkar edilmiş abidə müvafiq icra hakimiyyəti orqanı tərəfindən dövlət qeydiyyatına alınmalı və abidənin elmi sənədləşdirilməsi təmin edilməlidir.

Maddə 14. Abidələrin xaricə aparılması və geri qaytarılması Daşınar abidələrin elmi-təbliğat və mədəni mübadilə məqsədilə Azərbaycan Respublikasından xaricə müvəqqəti aparılması yalnız müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə həyata keçirilə bilər. Bu məqsədlərlə abidələrin müvəqqəti ölkədən çıxırılması üçün müvafiq icra hakimiyyəti orqanı gömrük orqanlarına yazılı təqdimat verməlidir. Xaricə müvəqqəti aparılmış abidələrin geri qaytarılmaması qadağandır. Azərbaycan Respublikasından xaricə qanunsuz aparılmış abidələrin axtarışını, tapılmasını və geri qaytarılmasını müvafiq icra hakimiyyəti orqanları həyata keçirir.

Maddə 15. Abidələrin mülki dövriyyəsinin xüsusiyyətləri Dövlət mülkiyyətində olan dünya və ölkə əhəmiyyətli daşınar abidələrin satılması qadağandır. Daşınar abidələr alındıqda və ya satıldıqda bu barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verilməlidir.

Maddə 16. Müharibə, fövqəladə vəziyyət və silahlı münaqişə zamanı abidələrin qorunması Döyüş təhlükəsi olan ərazilərdən və döyüş zonalarından daşınar abidələrin köçürülməsini müvafiq icra hakimiyyəti orqanı həyata keçirir. Fövqəladə hallarla əlaqədar olaraq daşınar abidələr onların məhv edilməsi, oğurlanması və ya korlanması təhlükəsi qarşısında qanunvericiliklə müəyyən edilmiş qaydada müvəqqəti olaraq təhlükəsiz rayonlara köçürülə bilər. Dövlət işğalçı tərəfindən qənimət kimi ələ keçirilmiş abidələr haqqında beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırır və onların qaytarılması və bərpası üçün tədbirlər görür. Abidələr hərbi məqsədlər üçün istifadə edilə bilməz. Müstəsna hallarda qoruqların ərazisi və yerli əhəmiyyətli memarlıq abidələri Azərbaycan Milli Elmlər Akademiyasının rəyi nəzərə alınmaqla, müvafiq icra hakimiyyəti orqanının razılığı əsasında qanunvericiliyə uyğun olaraq hərbi hissələrin təsərrüfat və mədəni məqsədləri üçün istifadəsinə verilə bilər. IV fəsil. Abidələrdən istifadə qaydaları

Maddə 17.Dövlət və ya bələdiyyə mülkiyyətində olan abidələrdən istifadə qaydaları və şərtləri Dövlət və ya bələdiyyə mülkiyyətində olan dünya əhəmiyyətli daşınmaz abidələrin və ya onların ayrı-ayrı hissələrinin icarəyə verilməsi qadağandır. Dövlət və ya bələdiyyə mülkiyyətində olan ölkə və yerli əhəmiyyətli daşınmaz memarlıq abidələri, habelə xüsusi mülkiyyətdə olan daşınmaz abidələr və ya onların ayrı-ayrı hissələri (arxeoloji abidələr istisna olmaqla) müqavilə əsasında elmi, mədəni, dini, xidmət və turizm məqsədləri üçün
onların istifadə proqramı, uyğunlaşdırma və bərpa layihələri müvafiq icra hakimiyyəti orqanı ilə razılaşdırıldıqdan sonra qanunvericilikdə nəzərdə tutulmuş qaydada icazəyə verilə bilər. Abidələri

və ya onların ayrı-ayrı hissələrini icazəyə götürənlər onların həcm kompozisiyasını, xarici görünüşünü, konstruktiv elementlərini dəyişdirməməli, istismar zamanı abidələrə zərər vurmamalı və təsərrüfat işləri zamanı arxeoloji abidələrdə mədəni təbəqənin korlanmasına yol verməməlidirlər. Belə abidələrdə və ya onların ayrı-ayrı hissələrində təmir, konservasiya və bərpa işləri icazəçinin vəsaiti hesabına müvafiq icra hakimiyyəti orqanının və mütəxəssislərin nəzarəti ilə aparıla bilər. Abidələrdən və ya onların ayrı-ayrı hissələrindən icazə qaydaları və şərtləri tərəflər arasında bağlanmış müqavilə ilə müəyyən olunur. Müqavilə şərtləri pozularsa, qanunvericiliklə nəzərdə tutulmuş qaydada müqaviləyə xitam verilir və dəymiş ziyan ödənilir. V fəsil. Abidələrin tədqiqi

Maddə 20.Arxeoloji abidələrin tədqiqi Azərbaycan Respublikası ərazisində arxeoloji qazıntı işləri aparmaq üçün icazə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən verilir və müvafiq icra hakimiyyəti orqanında qeydə alınır. Arxeoloji qazıntı işləri müvafiq icra hakimiyyəti orqanının nəzarəti ilə aparılır. Qazıntı mövsümü başa çatdıqdan sonra aparılmış tədqiqat işləri barədə hesabat və aşkar olunmuş maddi-mədəniyyət qalıqlarının siyahısı müvafiq icra hakimiyyəti orqanına və Azərbaycan Milli Elmlər Akademiyasına təqdim edilir. Azərbaycan Respublikası ərazisindəki abidələrin tədqiqi üçün xarici elmi müəssisə və alimlərlə birgə ekspedisiyalar təşkil edilə bilər. Xarici elmi müəssisələr və alimlər abidələrin tədqiqi üçün vəsait ayıra bilərlər. Birgə ekspedisiyanın rəhbərini Azərbaycan Milli Elmlər Akademiyası təyin edir. Qazıntı zamanı aşkar olunmuş arxeoloji materiallar dövlət mülkiyyətinə keçir və xüsusi fondlarda və muzeylərdə saxlanılır.

4.2.1. ABİDƏ QORUQLARININ YARADILMASI HAQQINDA MƏLUMATLARI İZAH EDİR

ABIDƏ QORUQLARININ YARADILMASI

Azərbaycan Respublikası Konstitusiyasının 77-ci maddəsinə görə tarix və mədəniyyət abidələrini qorumaq hər kəsin borcudur.

Tarix və mədəniyyət abidələri xalqın milli sərvətidir. Dövlət tarix və mədəniyyət abidələrinin qorunmasına təminat verir, onların elmi tədqiqi və təbliği üçün zəruri olan qurumların yaradılmasını, fəaliyyətini və inkişafını təmin edir, abidələrdən səmərəli istifadə üçün şərait yaradır.

Qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanları, yerli özünüidarə orqanları, siyasi partiyalar, ictimai birliklər, həmkarlar ittifaqları təşkilatları, hüquqi və fiziki şəxslər tarix və mədəniyyət abidələrini qorumalı, onları qorumaqla məşğul olan müvafiq icra hakimiyyəti orqanlarına, yerli özünüidarə orqanlarının yaratdığı təsisatlara və qeyri-dövlət təşkilatlara yardım göstərməlidirlər.

Bu maddənin dördüncü hissəsində göstərilən subyektlər tarix və mədəniyyət abidələri yerləşən ərazidə torpaq və ya inşaat işləri görərkən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi elmi təşkilatın rəyi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanlarından qabaqcadan icazə almalı və belə icazə alındıqdan sonra torpaq və ya inşaat işlərini görərkən müvafiq icra hakimiyyəti orqanlarının və mütəxəssislərin abidələrin qorunması barədə göstərişlərini icra etməlidirlər.

Azərbaycan Respublikasının dövlət sərhədinin sərhədboyu zona və sərhədboyu zolaqlarında, silahlı münaqişələr zamanı döyüş əməliyyatları zonalarında, hərbi qurumların ərazilərində istifadəsində olan torpaq sahələrində yerləşən daşınmaz tarix və mədəniyyət abidələrinin qorunması müvafiq icra hakimiyyəti orqanları tərəfindən həyata keçirilir

Tarix və mədəniyyət abidələrinin ərazilərində və onların mühafizə zonasında, memarlıq abidələrinin (binalarının) dam hissəsində reklam daşıyıcıları "Reklam haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, müvafiq icra hakimiyyəti orqanının razılığı ilə yalnız reklam-informasiya təşkilatlarının nəzdindəki bədii şuraların rəyi əsasında və həmin binaların dayanıqlığına mənfi təsir göstərməmək şərti ilə yerləşdirilə bilər.

Abidələr daşınar (səyyar) və daşınmaz (stasionar) ola bilər. Daşınar abidələr muzeylərdə, arxivlərdə, fondlarda, sərgilərdə və digər münasib yerlərdə, daşınmaz abidələr əksər hallarda arxeoloji və memarlıq abidələri olmaqla olduğu və inşa edildiyi yerlərdə qorunur.

Bu Qanunda istifadə edilən anlayışlar aşağıdakı mənaları ifadə edirlər:

a) **arxeoloji abidələr** — insanın fəaliyyəti ilə əlaqədar yer altında olan maddi mədəniyyət nümunələri, o cümlədən ibtidai insan düşərgələri və yaşayış məskənləri, qədim qəbiristanlar,

müdafiə sistemləri və istehkamlar, ziyarətgahlar, hər cür qədim əşyalar, dini və xatirə abidələri, qaya və daşüstü təsvirlər və yazılar, qədim mədən istismar izləri, əmək alətləri, istehsalat kürələri, qədim yollar, körpü qalıqları, arxlar, ovdan və kəhrizlər, su kəmərləri, kürəbəndlər və s.;

b) **memarlıq abidələri** — öz həcm-plan həllini kifayət qədər saxlayan qurmalar, müxtəlif təyinatlı memarlıq-inşaat binaları, yardımçı obyektlər, mühəndis kommunikasiyaları; məskənsalma (şəhərsalma) abidələri; ərazisinin əksər hissəsi memarlıq, tarixi-mədəni sənətkarlıq abidələri və tikililər ilə tutulan, ənənəvi məhəllələrə bölünən, bəzən də qala divarları ilə əhatə edilən, küçə şəbəkəsini və mühəndis kommunikasiyalarını qismən saxlayan yaşayış məntəqələri, bağ-parklar, xiyabanlar, incəsənət nümunələri; yeni yaranmış memarlıq abidələri; öz həcm-plan, bədii-estetik, istismar-funksional və texniki-konstruktiv həllinə görə uzun ömürlü memarlıq binaları və qurmaları; kiçik memarlıq formaları; monumentlər, obelisklər, fəvvarələr, şəlalələr, bulaqlar, hovuzlar, köşklər və ərazidə xüsusi mövqe tutan başqa yaradıcılıq obyektləri;

c) **tarix abidələri** — cəmiyyət və dövlət tarixi ilə, müharibə və milli azadlıq hərəkatı ilə, elm və texnikanın inkişafı ilə xalqın həyatındakı mühüm tarixi hadisələrlə bağlı dəyərlər, dövlət xadimlərinin və hərbi xadimlərin, Sovet İttifaqı Qəhrəmanlarının, Milli Qəhrəmanların, görkəmli elm və incəsənət xadimlərinin həyatı ilə bağlı qurmalar, mənzillər, xatirə yerləri, sənədlər və əşyalar, etnoqrafik abidələr — xalqın maddi, mənəvi, ideoloji, sənətkarlıq və təsərrüfat həyatını özündə əks etdirən qurmalar və əmək alətləri, əşyalar, epiqrafik abidələr — üzərində yazılar olan müxtəlif daş, gil, ağac və metal nümunələri;

ç) **sənədli abidələr** — rəsmi dövlət orqanlarının aktları, qədim əlyazmaları, nadir çap əsərləri, arxivlər, o cümlədən fono, foto və kino arxivlər;

d) **incəsənət abidələri** — tarixi və estetik dəyəri olan bədii, təsviri, dekorativ-tətbiqi sənət

nümunələri;

e) **qoruqlar** — tarix və mədəniyyət üçün böyük əhəmiyyəti olan, dövlət tərəfindən mühafizə edilən ərazilər və ya məskənlər;

ə) **adibələrin mühafizə zonası** — abidələrin görkəminə xələl gətirməmək məqsədilə onların yerləşdiyi sahənin ətrafında abidənin xarakterindən asılı olaraq müəyyən edilən əlavə tənzimləmə zonası.

4.3. TƏLƏBƏLƏR ÜÇÜN FƏALİYYƏTLƏR

- Arxeoloji abidələr haqqında müzakirələr təşkil edin.
- Memarlıq abidələrinin yaranma səbəblərini araşdırın.
- Qoruqlar haqqında məlumat toplayın və sinifdə onların fərqlərini müzakirə edin.
- Abidə qoruqlarının yaradılması haqqında məlumatlar toplayın
- Bayıl qalası haqqında sinifdə müzakirə aparın
- Bayıl qalasının hansı adlar adı altında olduğunu sərbəst şəkildə qeyd edin.
- Qız qalasının yerləşməsi haqqında məlumatlar toplayın.Mədəni irsi siyahıya dxil olan abidələri sadalayın.
- Atəşgah haqqında fikirlərnizi bölüşün.
- Ramana qalasının tikilməsi haqqında məlumat toplayın.
- Qız qalası ilə atəşgahın fərqlrini müzakirə edin.
- Qız qalasnın yaranma səbəbini araşdırın.
- Mərdakan qalası və Ramana qlasının fərqlərini sərbəst şəkildə müzakirə edin.
- Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz haqqında fikirlərnizi qrup şəklində bölüşün.
- Arxeoloji abidələr və memarlıq abidələrini bir birindən fərqləndirin.
- Abidələrin qorunması haqqında dövlət qanunlarından tanıdıqlarınzı sadalayın və qrup şəklində onları izah edin.
- Abidələrin əhəmiyyət dərəcələrini araşdırın
- Memarlıq abidələrinin və digər abidələrin tədqiqi necə aparılır və onları müzakirə edin.
- Bu şəkildə gördüyünüz tarixi abidələr hansılardır və onlar arasındakı fərqləri araşdırın.

- Hansı tarixi abidə daha məşhurdur və fikirlərnizi sərbəst şəkildə cədvəldə qeyd edin.
-

4.4. QİYMƏTLƏNDİRMƏ

Aşağıdakı qiymətləndirmə meyarına əsasən qiymətləndirəcəksiniz:

"Tarixi abidələr haqqında ümumi məlumat verir".

- Hansı tarixi abidələri tanıyırsız?
- Hazırda dəniz sularının altında qalmış memarlıq abidəsi hansıdır?
- Bayıl qalasının uzunluğu nə qədərdir?
- Bayıl qalasının tikintisi nə vaxt başa çatmışdır?
- Qız qalasının hündürlüyu neçə metr və divarın qalınlığı neçə metrə çatır?
- Neçənci ildə Qız qalası ümümdünya irsi siyahısına daxil olmuşdur?
- Şirvanşahlar sarayı neçənci ildə və kim tərəfindən tikilmişdir?
- Atəşgah harada yerləşir və plan qruluşuna görə nəyə oxşayır?
- Ramana qalası neçənci əsrə aiddir?
- Hansı qaladan vaxtilə yeraltı yolun olduğunu qeyd ediblər?
- Mərdəkan qalası neçənci ildə və kim tərəfindən tikilmişdir?
- Şıx qalasına əvvəllər nə qalası deyirdilər?

TƏLİM NƏTİCƏSİ 4

“Tarix və mədəniyyət abidələrinin mühafizəsi və qorunması haqqında məlumatları şərh edir.”.

- Hazırda işğal altında olan dünya əhəmiyyətli mədəni-tarixi abidələrimiz hansılardır?
- Tarixi abidə dedikdə nə başa düşürsüz?
- Tarixi abidələr necə qorunur?

“Abidə qoruqlarının yaradılması haqqında məlumatları izah edir.”.

- İncəsənət abidələri hansılardır?
- Tarixi abidələrə nəlr daxildir?
- Abidələrin mühafizə zonasına nələr daxildir?
- Memarlıq abidələri və qoruqların fərqləri nədir?

“Abidələrin qorunması haqqında dövlət qanunlarını əzbərdən danışır”.

- Dövlət və ya bələdiyyə mülkiyyətində olan abidələrdən istifadə qaydaları vəşərtləri hansılardır?
- Abidələrdən istiifadə qaydaları necə olur?
- Müharibə, fövqəladə vəziyyət və silahlı münaqişə zamanı abidələr necə qorunur?
- Abidələrin xaricə aparılması və geri qaytarılmasıüçün nə edilməlidir?
- Dəfinlərdə aşkar edilmiş və ya tapılmış abidələrin müqəddəratı kimlərə verilməlidir?
- Yeni inşaat sahələrində arxeoloji tədqiqatlar necə aparılır?
- Abidələrin toxunulmazlığı dedikdə nə başa düşürsünüz?
- Abidələrin dövlət qeydiyyatı vəəhəmiyyət dərəcələri dedikdə nə başa düşülür.
- Memarlıq abidələrinin və digər abidələrin tədqiqi necə olur?
- Abidələrin qoruq zonaları kim tərəfindən yaradılır?
- İnşaat və digər təsərrüfat işləri görülərkən aşkar edilən abidələrin qorunması zamanı nə edilməlidir

ƏDƏBİYYAT

1. TARİX VƏ MƏDƏNİYYƏT ABİDƏLƏRİNİN MÜHAFİZƏSİ VƏ TƏBLİĞİ: ARAŞDIRMA, TƏKLİF VƏ TÖVSİYƏLƏR Prof. Dr. Qafar Cəbiyev, Dr. Fariz Xəlilli, Arzu Soltan, Rəşad İbrahimov, Albina Rzayeva BAKI 2013.
2. TARİXİN DAŞ YADDAŞI Ə.Səfərəliyeva BAKI – 2009
3. EKOLOGİYA, ƏTRAF MÜHİT VƏ İNSAN Məmmədov Q.Ş., Xəlilov M.Y BAKI – «ELM» – 2006
4. İslam İbrahimov ƏTRAF MÜHİTİN İQTİSADİYYATI Bakı – 2015
5. http://barda.cls.az/ VAHID MƏRKƏZLƏŞDİRİLMİ KİTABXANA PORTALI